# Xalq qəzeti

Xalqın qəzeti!

№ 213 (30329) 1 oktyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**Azərbaycan kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən 3 peykimiz var. Əhalimizin 80 faizi internet istifadəçisidir. Azərbaycan artıq neçə ildir ki, dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür.**

# Azərbaycan kosmik nüfuz zirvəsində

## Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mourini qəbul edib.**

Dövlətimizin başçısı Azərbaycanda keçiriləcək 74-cü Beynəlxalq Astronavtika Konqresinin əhəmiyyətinə toxunaraq, bu tədbirə ev sahibliyi etməsi üçün ölkəmizin seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Konqresin Azərbaycanda yüksək səviyyədə təşkili üçün böyük hazırlıq işlərinin görüldüyünü vurğuladı.

Dövlətimizin başçısı xeyli sayda qonağın iştirak edəcəyi bu tədbirin Azərbaycan ilə daha yaxından tanış olmaq və gələcək əməkdaşlıq planlarının müəyyənləşdirilməsi baxımından önəmli olduğunu qeyd etdi.

Kley Mouri Azərbaycana gəlməkdən məmnunluğunu bildirərək, 74-cü Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi, Azərbaycanın Konqresə hazırlığını yüksək qiymətləndirdi.

Konqresin əhəmiyyətinə toxunan qonaq burada 100-dən artıq ölkədən 5 mindən çox nümayəndənin iştirakını tədbirə verilən önəmin göstəricisi kimi dəyərləndirdi. Qeyd etdi ki, bu tədbir indiyədək keçirilmiş digər konqreslərlə müqayisədə iştirakçıların sayı və tərkibi baxımından eyni səviyyədədir, hətta bəzi göstəricilərə görə onlardan da üstündür.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti bildirdi ki, bu tədbir təqdim ediləcək elmi məqalələrin sayına görə də ən önəmli konqreslərdən biri olacaq. Belə ki, Konqresə 3600-dək elmi məqalə təqdim ediləcək.

Bu tədbir çərçivəsində BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin və Beynəlxalq Astronavtika Federasiyasının birgə təşkilatçılığı ilə "Sosial və iqtisadi faydalar naminə kosmik texnologiyalar" adlı seminarın və Kosmik Nəsil Məşvərət Şurasının Kosmik Nəsil Konqresinin də keçirildiyi bildirildi.

Söhbət zamanı Bakı şəhərinin və Konqres Mərkəzinin bu mötəbər beynəlxalq tədbirə yüksək səviyyədə hazırlığı xüsusi qeyd olundu.

*AZƏRTAC*

# İndi heç kim Azərbaycanın təmkini ilə oynamağa cəhd eləməz




**Dövlət başçımızın BMT-nin Məskunlaşma Proqramının və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə təşkil olunan "Şəhərsalma həftəsi 2023" tədbirləri çərçivəsində II Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimindəki çıxışı Cənubi Qafqazdakı proseslər barədə dünya ictimaiyyətinə verilən növbəti mesaj, şərh kimi böyük əhəmiyyət kəsb edirdi.**

Həmin çıxışdakı "Bizim səbrimizlə oynamasınlar" xəbərdarlığı Cənubi Qafqazın bugünkü ərzi-halını dəyişmək xülyası ilə yaşayanlara olduqca sərt xəbərdarlıq idi. Həm də olduqca vacib addım idi. Yəni, hərə öz yerini bilməlidir ki, sadə insanlar kiminsə başıpozuqluğundan əziyyət çəkməsinlər. Həyat sübut etdi ki, erməni xalqının ideoloq və siyasətçilərinin gerizəkalılığı nəticəsində tək Azərbaycan və regionun digər xalqları deyil, erməni xalqının özü də uzun illər əziyyət çəkdi və sarsıdıcı zərbələrə məruz qaldı.

(ardı 4-cü səhifədə)



# Şərqi Zəngəzur: "Ağıllı" şəhər və kəndlərdən "Dost aqropark"lara

**Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunan ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən, nəqliyyat–kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülüb. Bu, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, müasir texnologiyalar əsasında "ağıllı şəhər" və "ağıllı kənd"lərin inşa olunmasına, bu zaman ən müasir şəhərsalma nümunələrindən istifadə edilməsinə, aqrar sahənin, o cümlədən, heyvandarlığın inkişafının reallaşmasına, habelə əhalinin dayanıqlı məskunlaşmasına xidmət edib, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradıb.**

(ardı 8-ci səhifədə)




# Yüksək xidmət – aşağı qiymət

**Oktyabrın 1-dən ölkə ərazisində taksi xidmətləri sahəsində bir sıra yeniliklərin tətbiqinə başlanılır. Yeniliklərdən biri taksi minik avtomobillərinin sürücülərinə dair yeni tələblərin qüvvəyə minməsi ilə bağlıdır. Bu məsələ "Avtomobil nəqliyyatı haqqında" Qanuna edilən dəyişiklikdə öz əksini tapıb.**

(ardı 7-ci səhifədə)

# Paşinyan iqtidarından narazıların sayı artır

**Azərbaycanın bütün ərazisində suverenliyini bərpa etməsindən sonra Ermənistanda başlayan etirazlar davam edir. Müxtəlif siyasi partiyaların, politoloqların, ictimai xadimlərin, sabiq məmurların hökumət əleyhinə çıxışları səngimək bilmir. Etirazçılar baş verənlərə görə birmənalı şəkildə hökumətin başçısı Nikol Paşinyanı ittiham edirlər. Qeyd edirlər ki, son illərdə Ermənistanın və erməni xalqının başına gələn bəlalar onun avantürizminin nəticəsidir.**



Sentyabrın 30-da İrəvanda yürüş və mitinq keçirilib. Saat 15:00-da Mesrop Maştots adına qədim əlyazmalar institutunun ("Matenadaran") binasından yürüş başlanıb. Yürüş Qarabağdakı keçmiş separatçı rejimin siyasi və hərbi rəhbərliyində olmuş və son günlərdə ölkəmizin hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq barələrində həbs-qətimkan tədbiri seçilmiş şəxslərə dəstək məqsədilə keçirilib. Təşkilatçı Ruben Ayrapetyan yürüşün ümumi mübarizə kontekstində "çox önəmli" olduğunu bildirib. Yürüşə aktyor Vardan Petrosyan da qoşulub. "Hökumətimiz tərəfindən sərt münasibət olmalıdır, çünki bu, yolverilməzdir. Ruben Vardanyan nə birinci, nə də sonuncudur", – deyə Petrosyan bildirib.

*(ardı 3-cü səhifədə)*

# Rayon qəzetləri son nəfəsdə...




Səhifə ⇨ 11



# Türkiyə bölgədə sülh və təhlükəsizliyin qarantıdır

**Türkiyənin xarici siyasəti hər zaman dinamikliyi və qətiyyətliliyi ilə fərqlənib. Qardaş ölkə, təbii ki, zamanın çağırışları fonunda öz milli maraqlarına uyğun hərəkət edib. Bununla bərabər, humanizm və bəşəri əxlaq prinsipləri heç vaxt arxa plana keçməyib.**

Hər dövrün öz hökmü, diktəsi var. Son aylar Türkiyənin xarici siyasət kursunda müəyyən dəyişikliklər baş verir. Belə ki, rəsmi Ankara indi yaxın və uzaq dövlətlərlə kəskin rəqabətdən daha çox hərtərəfli əməkdaşlığa üstünlük verməyə çalışır.

(ardı 11-ci səhifədə)

# Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə

**Hörmətli cənab Sədr,**

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu gün Çin dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir. Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə ölkənizin hər bir sahədə əldə etdiyi nailiyyətləri və uğurları onu dünyanın iqtisadi cəhətdən ən qüdrətli və qabaqcıl ölkələri sırasına çıxarmış, beynəlxalq aləmdə mövqeyini daha da gücləndirmişdir.

Yaxın dost və etibarlı tərəfdaş ölkə olan Çinlə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Şadam ki, qədim tarixə və xoş ənənələrə əsaslanan Azərbaycan–Çin münasibətləri yüksələn xətlə inkişaf edir, tərəfdaşlığımız gündən-günə yeni məzmunla zənginləşir.

Məmnunluqla qeyd etmək istərdim ki, hazırda ikitərəfli münasibətlərimiz geniş gündəliyə malikdir. Qarşılıqlı faydalı əməkdaşlığımızın iqtisadiyyat, ticarət, nəqliyyat-logistika, bərpaolunan enerji, humanitar və digər sahələrdə çox aydın və böyük perspektivləri vardır. Eyni zamanda Çindən Azərbaycan vasitəsilə qərb istiqamətində daşınan yüklərin həcminin artması "Kəmər və yol" layihəsi çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətimizin növbəti bariz nümunəsidir.

Çin şirkətləri uzun müddətdir ki, ölkəmizdə səmərəli fəaliyyət göstərir və dövlətlərarası münasibətlərimizin inkişafında vacib rol oynayırlar. Biz bu əməkdaşlığın işğaldan azad olunmuş ərazilərimizdə də davam etdirildiyini görmək istərdik.

Azərbaycan vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü və suverenliyini daim birmənalı şəkildə dəstəkləmişdir. Çinin də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyi yüksək qiymətləndiririk.

Əminəm ki, xalqlarımızın mənafeləri naminə Azərbaycan–Çin çoxşaxəli münasibətlərinin daha da inkişafı, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2023-cü il**

# Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramına (UN-Habitat) vəsait ayrılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Qlobal urbanizasiyanın artdığı şəraitdə şəhərlərin dayanıqlı, inklüziv və təhlükəsiz inkişafını təmin etmək Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv dövlətlərin əsas hədəfinə çevrilmişdir. Ötən illərdə Azərbaycan bu sahədə BMT-nin aparıcı təsisatı olan Məskunlaşma Proqramı (UN-Habitat) ilə sıx əməkdaşlıq edərək, qeyd olunan hədəfin reallaşmasına mühüm dəstək göstərmişdir.

Təsadüfi deyildir ki, işğaldan azad edilmiş ərazilərdə müasir şəhər quruculuğu və bərpa işləri BMT-nin "Dayanıqlı inkişaf məqsədləri" təşəbbüsünün prinsipləri əsasında həyata keçirilir.

Gələcək inkişafın və rifahın əsas qüvvəsi olan şəhərlərin davamlı inkişafı naminə ölkələrin fəal əməkdaşlığı qlobal sülhə, təhlükəsizliyə və inkişafa mühüm töhfə ola bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Dünyada dayanıqlı şəhərlərin inkişafı istiqamətində faydalı əməkdaşlığın genişlənməsinə, eləcə də bu çərçivədə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəstək göstərmək məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) 1,0 (bir) milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2023-cü il**

# "Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 sentyabr tarixli 1441 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 sentyabr tarixli 1441 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 981) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.3-cü bənddə və 3.3.1-ci yarımbənddə "məlumat bazasına" sözləri "informasiya sisteminə" sözləri ilə əvəz edilsin.

**2.** 2.4-cü bənddə "elektron məlumat bazasının (bundan sonra – məlumat bazası)" sözləri "informasiya sisteminin (bundan sonra – informasiya sistemi)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2023-cü il**

# Davit Babayan da məsuliyyətə cəlb edildi

**Erməni silahlı birləşmələrinin üzvləri tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin əsirlikdə olan hərbi qulluqçuları, mülki və digər şəxslərə qarşı ağır cinayətlər törədilməsi faktları üzrə başlanmış cinayət işinin istintaqı davam etdirilir.**

Azərbaycan Respublikasının Prokurorluq orqanları tərəfindən başlanmış cinayət işinin istintaqı ilə müəyyən edilib ki, 2013-2023-cü illərdə separatçı qurumun "prezident aparatının rəhbərinin müavini, prezidentin xarici siyasət məsələləri üzrə köməkçisi, xarici işlər naziri və xüsusi tapşırıqlar üzrə prezidentin köməkçisi vəzifələrində" işləmiş, 1973-cü il tarixdə Xankəndi şəhərində anadan olmuş Babayan Davit Klimoviç həm 44 günlük Vətən müharibəsi dövründə, həm Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması, əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə aparılan antiterror tədbirlərində qondarma qurumun digər "rəhbər vəzifəli şəxsləri" ilə cinayətkar birlik halında milli düşmənçilik və nifrət aşılayan, terrorçu qruplaşmaların fəaliyyətini əlaqələndirməklə məşğul olması, o cümlədən, 2020-ci il oktyabrın 17-də, Gəncə şəhərinin müdafiə olunmayan və mülki əhalinin yaşadığı əraziləri, yaşayış məntəqələri və silahsızlaşdırılmış zonaları hədəfə almaqla, ballistik raketlərdən istifadə edib çoxsaylı mülki şəxslərin ümumi təhlükəli üsulla, xüsusi amansızlıqla, terrorçuluqla əlaqədar, milli ədavət və düşmənçilik zəminində qəsdən öldürülməsi və yaralanması ilə bağlı cinayətləri təşkil etməsinə əsaslı şübhələr müəyyən edilib.

Davit Babayan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 32.3, 114.1 (muzdlular yığma, onlara təlim keçmə, maliyyələşdirmə və başqa cür maddi təminat vermə, habelə onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə etməni təşkil etmə), 32.3, 116.0.1, 32.3, 116.0.6, 32.3, 116.0.7, 32.3, 116.0.8, 32.3, 116.0.9, 32.3, 116.0.10 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 117.2-ci (silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə), 32.3,214.2.1, 32.3,214.2.3, 32.3,214.2.4 (terrorçuluğu təşkil etmə), 283.2.1, 283.2.3-cü (milli düşmənçiliyin salınmasını təşkil etmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib.

Sentyabrın 29-da D.Babayan Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq istintaqa təqdim olunub və ona həmin tarixdə qeyd olunan maddələr üzrə ittiham elan edilib.

Bundan başqa, istintaqla 1965-ci ildə Azərbaycanın Xocavənd rayonunda anadan olmaqla orada yaşamış, Ermənistanın sabiq hərbi qulluqçusu, 2015-2018-ci illərdə qondarma rejimin "müdafiə naziri" vəzifəsində işləmiş, eləcə də Azərbaycan ərazisində fəaliyyət göstərmiş qanunsuz hərbi silahlı qrupun üzvü olan Mnatsakanyan Lyova Henrixi qabaqcadan əlbir olduğu şəxslərlə birgə 2002-ci il mayın 8-də beynəlxalq humanitar hüquqla müdafiə olunan Məmmədov İlham Yusif oğlunu və digər əsir düşmüş azərbaycanlıları Füzuli rayonunun Alxanlı kəndi ərazisində əsir götürərək Füzuli şəhərində yerləşən hərbi hissədə milli ədavət zəminində çoxsaylı işgəncələr verdiyi və həmin il noyabrın 19-dək onu əsirlikdə saxlamalarına əsaslı şübhələr müəyyən edilib.

Lyova Mnatsakanyanın 2006-cı il noyabrın 8-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 113-cü (işgəncə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul edilib və həmin il noyabrın 14-də müvafiq məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilib.

Cari il sentyabrın 29-da L.Mnatsakanyan Laçın sərhəd-buraxılış məntəqəsindən Ermənistana keçmək istəyərkən saxlanılaraq istintaqa təqdim olunub və həmin tarixdə ona qeyd olunan maddə ilə ittiham elan edilib.

Hər iki şəxs barəsində həbs qətimkan tədbirinin seçilməsinə dair məhkəmə qərarı icra olunaraq Dövlət Təhlükəsizliyi Xidmətinin istintaq təcridxanasına etap olunub.

Hazırda cinayət işləri üzrə zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***XQ***

# II Milli Şəhərsalma Forumu işini davam etdirir





**"Şəhərsalma Həftəsi 2023" çərçivəsində təşkil olunan "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda II Azərbaycan Milli Şəhərsalma Forumunun (NUFA2) ikinci günü paytaxt Bakıda keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları Forum çərçivəsində Bakı şəhərinin Baş planı və işğaldan azad edilmiş rayonların Baş planlarına həsr edilən stendlərlə tanış olublar.

Forumda məruzə ilə çıxış edən Dünya Bankının baş məsləhətçisi xanım Ellen Hamilton Azərbaycan hakimiyyəti tərəfindən məcburi köçkünlərlə bağlı həyata keçirilən tədbirlərdən söhbət açıb.

Dünya Bankının təmsilçisi Bakı şəhərinin inkişafı və ümumiyyətlə, şəhərsalma sahəsində görülən işləri təqdir edib.

Məruzəçi, həmçinin müasir şəhərsalma sahəsində qarşıya çıxan problemlərdən də danışıb. Qeyd olunub ki, şəhərsalmada, ilk növbədə, ekoloji məsələlərə, düzgün planlaşdırmaya, şəhərsalma qanunvericiliyinə diqqət yetirilməli və eyni zamanda bu sektorlara müvafiq vəsait yönəldilməlidir.

# Ermənistan Beynəlxalq Ədalət Məhkəməsindən sui-istifadə edir

**Sentyabrın 29-da Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işi üzrə (Ermənistan Azərbaycana qarşı) müvəqqəti tədbirlərin müəyyən edilməsi məqsədilə irəli sürdüyü növbəti iddialar tamamilə əsassız və absurddur.**



Bunu XİN-in mətbuat katibi Ayxan Hacızadə bildirib.

Mətbuat katibi vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı Ermənistanın iddialardan əl çəkmədiyini, Beynəlxalq Ədalət Məhkəməsinin qeyd edilən iş üzrə əvvəlki qərarını heçə sayaraq azərbaycanlılara qarşı irqi nifrətin qızışdırılması və təşviqinə yönələn bu yeni iddialar tamamilə qəbuledilməzdir.

"Ermənistan BMT Təhlükəsizlik Şurasında olduğu kimi, Beynəlxalq Ədalət Məhkəməsindən də öz məkrli siyasi gündəliyi üçün sui-istifadə edir. Təkcə bu il ərzində Ermənistan bu məhkəməyə artıq 3-cü dəfədir müraciət edir. Qeyd edək ki, Ermənistanın yanvar ayında verdiyi 3 vəsatətdən 2-si rədd edilib, 1 məhdud formada təmin edilib, may ayında isə verdiyi vəsatətlər hakimlər tərəfindən iyul ayında yekdilliklə rədd edilib.

Azərbaycan tərəfi Ermənistanın bu yeni əsassız iddialarına tutarlı cavablarının əks olunduğu mövqeyini aidiyyəti üzrə məhkəməyə təqdim edəcək", – deyə o qeyd edib.

# XİN erməni radikal qruplaşmalarının hücumunu kəskin qınayır

**Azərbaycanın Xarici İşlər Nazirliyi erməni radikal qruplaşmalarının ABŞ-da təşkil olunan konfransın iştirakçılarına qarşı hücumu ilə bağlı bəyanat yayıb.**

Bəyanatda deyilir: "Sentyabrın 29-da ABŞ-ın Los-Anceles şəhərində erməni radikal qruplaşmalarının Cənubi Kaliforniya Universitetində Annenberq Kommunikasiya və Jurnalistika Fakültəsi və Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə baş tutan "Türkiyənin ictimai diplomatiyası" mövzusunda konfrans iştirakçılarına qarşı hücumunu kəskin qınayır və pisləyirik.

Bu hücumun timsalında radikal erməni qruplaşmalarının bu kimi irqi ayrı-seçkilik, nifrət nitqi və zorakılıq elementlərini özündə ehtiva edən davranışları geniş beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə qınanmalı, bu cür hərəkətlərin qarşısının alınması üçün aidiyyəti dövlət qurumları tərəfindən müvafiq addımlar atılmalıdır".

***XQ***

# Hərbi qulluqçumuz şəhid olub

**Sentyabrın 30-u günorta saatlarında Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətindəki mövqeyindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Aşağı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyinə snayper silahından atəş açılıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, atəş nəticəsində hərbi qulluqçumuz Orucov Vüsal Xeybalı oğlu şəhid olub.

Bölmələrimiz tərəfindən cavab tədbirləri görülür.

# Ağdərədə də silah-sursat və döyüş texnikası müsadirə edilib

**Ağdərə ərazisindəki mülki infrastruktur obyektlərinə baxış zamanı növbəti silah-sursat anbarı müəyyən edilib. Anbardan aşkar edilmiş xeyli sayda patron, əl qumbaraları, minaatan, müxtəlif çaplı ağır artilleriya və tank mərmiləri, tank əleyhinə raket komplekslərinin idarəolunan raketləri və digər döyüş sursatları, həmçinin müxtəlif təyinatlı döyüş texnikası müsadirə edilib.**



Bundan başqa qeyd olunan istiqamətdəki dayaq məntəqəsindən də silah və sursatla dolu yeşiklər aşkar edilərək götürülüb.

***XQ***

# Paşinyan iqtidarından narazıların sayı artır

## Rəsmi İrəvanın bu vəziyyətdən necə çıxacağı yaxın günlərdə atacağı addımlardan asılıdır

**(əvvəli 1-ci səhifədə)**

O, bununla bağlı Ermənistan hakimiyyətinin hərəkətlərini qeyri-kafi qiymətləndirdiyini deyib. V.Petrosyan baş nazirin istefasını tələb edənlərin tərəfində olduğunu vurğulayıb.

Axşam saatlarında isə İrəvanın mərkəzindəki "Respublika" meydanında "Milli komitə"nin təşkilatçılığı ilə mitinq keçirilib. Mitinqin keçirilməsi zərurəti barədə danışan "Milli komitə"nin üzvü Avetik Çələbyan deyib ki, hərəkat ölkənin və vətəndaşların təhlükəsizliyinə yaranmış təhdidə qarşı durmaq məqsədilə yaranıb: "İctimaiyyətə yaxşı məlumdur ki, bu təhdidlərin əsas günahkarı hazırkı hakimiyyət və onun lideri Nikol Paşinyandır. Ona görə də hərəkatın ən mühüm məqsədlərindən biri Nikol Paşinyanı tez bir zamanda hakimiyyətdən uzaqlaşdırmaqdır. Hər bir mitinq həm də Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasına səbəb olacaq hərəkətləri formalaşdırmaq məqsədi daşıyır".

***

Ermənistandakı situasiyanı şərh edən politoloq Arman Qukasyan deyib ki, daxili siyasi vəziyyətin gərginləşməsi bilavasitə Qarabağ ətrafında yaranmış vəziyyətlə bağlıdır. Onun sözlərinə görə, müxalifət Paşinyanı Qarabağı təslim etməkdə ittiham edir. Ermənistan hakimiyyəti isə bütün oxları Moskvaya tərəf yönəldir. 2020-ci ildə baş verən 44 günlük müharibəni xatırladan politoloq vurğulayıb ki, həmin vaxt müharibə yalnız əsas vasitəçi rolunu üzərinə götürən Rusiyanın səyləri sayəsində dayandırılmışdı: "Belə görünürdü ki, müəyyən çətinliklərə baxmayaraq, bölgədə vəziyyət sabitləşməyə doğru gedir, lakin Ermənistan hakimiyyətinin sonrakı naşılığı Qarabağda və Ermənistanda bugünkü bəlaların əsasına çevrildi. Paşinyan və komandası məsələnin həlli üçün Qərb variantını seçərək, açıq şəkildə Ermənistanın və Qarabağın maraqlarına uyğun olmayan yolla getdi. Eyni zamanda, Paşinyan 2022-ci il oktyabrın 6-da Praqada Prezident İlham Əliyevlə birgə sənəd qəbul edərək Qarabağı Azərbaycanın bir hissəsi kimi rəsmən tanıdı. Baş nazir bu addımı ilə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı neytrallaşdırmaqla yanaşı, həm də məsələnin həlli prosesində Ermənistan tərəfinin mövqeyini xeyli zəiflətməklə Rusiyanı Qarabağ ermənilərinə onların mübarizəsində bir növ dəstək vermək imkanından məhrum etdi. Paşinyan Qarabağ əhalisinin mübarizəsinin səviyyəsini statusdan sadəcə Qarabağda insanların təhlükəsizliyi məsələlərinə endirdi".

A.Qukasyan qeyd edib ki, bütün bunların fonunda Ermənistan cəmiyyətində anti-Rusiya əhval-ruhiyyəsi sürətlə vüsət almağa başlayıb: "Bizim xatırladığımız kimi, Paşinyan hakimiyyətə gəldikdən sonra dərhal anti-Rusiya siyasəti yürütməyə və Moskvaya qarşı qeyri-dost bəyanatlar verməyə başladı. Bir çox yüksək rütbəli erməni məmurlar 2020-ci il müharibəsindən sonra anti-rus hucumlarla vəziyyəti daha da gərginləşdirməyə başladılar. İndi isə Paşinyan və komandası bütün problemlərə görə Rusiyanı təqsirləndirməyə başlayıb, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına dəstəkdən imtina edib, Avropa İttifaqının mülki missiyasını qəbul edib".



Politoloq qeyd edib ki, Paşinyan və onun hökuməti bu gün Rusiya Federasiyası Prezidentinin həbsini nəzərdə tutan Roma statutunu ratifikasiya etməyə hazırlaşır, erməni-amerikan birgə təlimləri keçirilir, eyni zamanda, İrəvan uzun müddətdir KTMT-nin təlimlərindən imtina edir: "Roma statutunun ratifikasiyası bizə Ermənistan–Rusiya münasibətlərinin pozulmasından başqa heç nə verməyəcək, bu, təhlükəli avantüradır. Ermənistan hakimiyyəti bu addımı Azərbaycana qarşı cəza mexanizmi formalaşdırmaq üçün əlavə alət qazanmaq məqsədilə atdığını bildirir. Ancaq İrəvan həmin planda da uğursuzluğa düçar olacaq. Sənədin təsdiqlənməsi Rusiya ilə münasibətlərdə yeni problemlər yaradaraq, bizi yalnız növbəti təhlükələrə məruz qoyacaq. Bu avantürist siyasət fəlakətə gətirib çıxarır".

Politoloq deyib ki, Ermənistan rəhbərliyi cəmiyyətin keçmiş hakimiyyətə qarşı konsolidasiyası fonunda hakimiyyətə gəlib, lakin indi bu texnologiya işləmir və Ermənistan hakimiyyəti öz səhvlərinə görə Moskvanı günahlandırmaq qərarına gəlib: "Hazırda anti-Rusiya siyasəti Paşinyan üçün şəxsi hakimiyyətini saxlamaq üçün bir vasitədir, arada isə erməni maraqları bundan əziyyət çəkir. Bu siyasətə görə biz artıq Qarabağı itirmişik, Ermənistan isə ciddi çağırışlarla üz-üzədir".

Onun sözlərinə görə, hadisələrin gələcək inkişafı Ermənistan hakimiyyətinin həyata keçirəcəyi siyasətdən asılıdır, lakin seçilmiş kurs birmənalı şəkildə erməni maraqlarının mövcud olduğu yerə aparmır.

Haylar arasında daim müzakirə olunan ölkənin KTMT-dən çıxma ehtimalına gəlincə, Qukasyan qeyd edib ki, İrəvan NATO-dan və ya hər hansı digər təhlükəsizlik sistemlərindən heç bir təklif almayıb: "KTMT ən ideal təşkilat olmaya bilər, lakin hakimiyyət yeni təhlükəsizlik sistemi əldə etmədən belə qeyri-uzaqgörən addım atsa, bu, ölkəmiz üçün, xüsusən də belə bir regionda, sadəcə, fəlakət olacaq".

"Hraparak" qəzeti isə Ermənistan parlamentinin Roma statutunu ratifikasiya etməyə hazırlaşmasına dair yazır: "Görünür, Ermənistan baş naziri Nikol Paşinyan Roma statutunu ratifikasiya etməklə hansı işə qol qoyduğunu tam başa düşmür. O, yəqin ki, Qərb müştərilərinin bununla Vladimir Putini incitməyə çalışdığını düşünür. Ancaq o, böyük səhv edir. Roma statutu Qərbin Paşinyanın boğazına taxdığı ilgəkdir. Bu, Paşinyan və Qərb üçün sonun başlanğıcına çevriləcək. Dünyada hər şey çox sürətlə dəyişir. Bu gün Şarl Mişeli qucaqlayırsan və ya Co Bayden sənə məktub yazır, sabah isə birdən-birə sən xalqın gözündə hərbi cinayətkar ola bilərsən. Necə ki, Qarabağda bunu etdin. Məhz buna görə də ABŞ Beynəlxalq Cinayət Məhkəməsinə qoşulmayıb. Orada hər yeni prezident öz sələfini həbs etmək hüququna malikdir".

"Joxovurd" qəzeti yazır ki, parlamentdəki hakim fraksiyanın deputatları gələn həftə toplaşacaq. Belə ki, "Mülki müqavilə" bazar ertəsi axşam fraksiya iclası keçirəcək. Nəşrin mənbələrinə görə, bu görüş adi görüşlərdən biri olmayacaq. Müzakirə olunacaq mühüm məsələlər var ki, onlar təkcə parlamentin iclasına aid deyil, ona görə də "Mülki müqavilə"nin rəhbərliyi bütün deputatların iştirakını tapşırıb: "Bizə məlumat verildi ki, yaranmış fəlakətli vəziyyətə görə parlamentin gələn həftə başlanacaq sessiyasının gərgin atmosferdə keçirilməsi gözlənildiyi üçün "Mülki müqavilə"nin deputatları gələcək fəaliyyətlərini müzakirə edəcəklər. Parlamentdə iqtidar fraksiyasının deputatları üçün xoşagəlməz çıxışlar və suallar olacaq, ona görə də onlar bütün suallara hazır cavab almaq və yaranmış vəziyyətdən çıxmaq üçün əvvəlcədən hazırlaşmalıdırlar. Baxmayaraq ki, artıq ilkin qərar qəbul edilib – hər şeyi keçmiş hakimiyyətin və rusların üzərinə atmaq. Gələn həftənin çərşənbə günü Nikol Paşinyan da parlamentə gələcək. "Mülki müqavilə"nin deputatları da öz aralarında qərar verməlidirlər ki, həmin gün Paşinyana kimin hansı sualı verəcəyinə hazırlaşsın".

Ermənistanın sabiq maliyyə naziri Vardan Aramyan isə "Facebook" hesabında yazıb: "Biz hamımız Ruben Vardanyana, David Babayana və 120 min (?) "artsaxlı"ya xəyanət etmişik. Və heç kim buna bu və ya digər prosesin səbəb olduğunu iddia etməyə çalışmasın, əsas nəticədir. Hökumət üzvləri, siz gecələr yaxşı yatırsınız? Bu dövlətin başında ruslar, portuqallar, müxalifət və ya ABŞ deyil, sizsiniz. Bu, fəlakətdir, cənablar".

Beləliklə, göründüyü kimi, Ermənistanda hakimiyyətdən narazılıq getdikcə artır. İndiyədək bir çox çağırışlarla üzləşmiş Paşinyan iqtidarı indi daha çətin vəziyyətdədir. Rəsmi İrəvanın bu vəziyyətdən necə çıxacağı isə onun yaxın günlərdə atacağı addımlardan asılıdır.

***Səxavət HƏMİD***
***XQ***

**EKSPERT RƏYİ**



**Yeganə HACIYEVA, politoloq**

– Ermənistanda etirazlar, adətən, beynəlxalq donor mərkəzlərinin maliyyəsinin əldə olunması üçün keçirilir. Bu işlərin "ustası" da, əslində, ölkənin hazırkı hakimiyyətidir. Çünki indiyədək daha çox onların daxil olduğu "Soros şəbəkəsi" aktiv etirazlar edirdi. Onlar hər nə qədər "Soros şəbəkəsi" olsalar da, yekunda erməni maraqlarına xidmət edirlər.

İndi ondan narazıların keçirdikləri aksiyalara gəldikdə isə qeyd etmək lazımdır ki, Paşinyan üçün etirazlar həmişə xarakterik olub. O özü də etiraz dalğasında hakimiyyətə gəlib. Ümumiyyətlə, onu da qeyd edim ki, Paşinyan etirazların idarə olunmasını, kütləvi şüuru manipulyasiyanı yaxşı bacarır. Müharibədə məğlub olduqdan sonra keçirilən təkrar seçkidə qələbə çalması bunun göstəricisidir. Hazırkı etirazların landşaftı bir neçə qrupun orada aktiv iştirakıdır. Burada ciddi maliyyə olduğunu da hiss etmək mümkündür. Çünki bu etirazlar maliyyə hesabına təşkil olunur. Mitinq üçün texniki vasitələrin alınması tələb olunur ki, bunun üçün də, ilk növbədə, maliyyə lazımdır.

Etirazların ciddi perspektivinin olacağını gözləmək lazım deyil. Paşinyan ən azı hakimiyyət müddətinin sonunadək vəzifədə qalacaq. Məsələ bundadır ki, etirazlar elə Paşinyanın öz ətrafından idarə olunur. Mitinqlərin təbliğatı üçün media dəstəyini Paşinyanın həyat yoldaşı Anna Akopyanın aid olduğu sorosçu media şəbəkəsi kurasiya edir. Paralel olaraq, etirazçıları qrupları yenə Paşinyanın ətrafındakı iqtisadi dairələr maliyyələşdirir. Buradan o nəticəyə gəlmək olur ki, baş nazir özü etirazları təşkil etməklə ətrafa demokratiklik görüntüsü ötürür.

# Qarabağ – qədim türk yurdu, ərlər oylağı

**Azərbaycanın uğurlu lokal antiterror tədbirlərindən dərhal sonra ermənilərin katalikosu TV kanallarında dünyadakı həmcinslərini birləşməyə, çarpışmanı davam etdirməyə çağırdı. Bu harayın ardınca sentyabrın 28-də Qarabağdakı separatçıların qondarma qurumu– Xankəndi xuntası özünü buraxdığını bütün dünyaya elan etdi.**

Mən bədnam hay-qriqorian kilsəsinin Qarabağ münaqişəsində mürtəce rolunu, din mərkəzinə yaraşmayan faşist mövqeyini, terror əməllərini, hələ sovet dönəmində kilsələri silah-sursat anbarlarına çevirməsini, keşişlərin daşnakçı terrorçularla birgə dinc əhalinin hərəkət etdiyi yollara minalar basdırmasını bir kənara qoyub hayların tarixi istinadgaha çevirdikləri Artsax sözü barədə danışmaq istəyirəm. Ermənilər bu sözlə Qarabağ toponimini unutdurmaq istəyirdilər. Lakin unudurdular ki, Qarabağ kimi Artsax da türk mənşəlidir.

Əski çağlardan dədə-babalarımız Arazın bu tayını Qarabağ – iri bağ, bağ-bağatlı torpaq, o tayını Qaradağ – iri dağ, dağlıq yer adlandırmışlar. Qaradağ adı Türküstandan tutmuş Anadoludan o yanlaradək neçə-neçə ölkələrdə mövcuddur. O ki qaldı "Artsaq" sözünə bu kəmsavad, bədbəxt toplum bilmir ki, həmin etnoniminin dəyişilmiş şəkli olan "Ərsaq" da türkcədir. "Ərməniyyə"ni "Armenia" elədikləri kimi, "Ərsaq"ı da "Artsax"a çevirmişlər. Ərsaq "ər" və "saq" sözlərinin birləşməsindən yaranmışdır. "Saq ərləri" Saq kişiləri deməkdir. "Saq" etnonimi qədim türk tayfasının adıdır. Və bu sözə haralarda rast gəlinmir... Dünya ədəbiyyatının ilk nümunələrindən olan Saqalar, Saxa Respublikası, Saxalin yarımadası... Yunan tarixçisi Herodot Azərbaycanın İsmayıllı rayonundan Balakənin çevrələrinədək ərazinin "Sakasen" adlandırıldığını yazmışdır. VIII Roma legionu Britaniyaya gedəndə sakslar–saqlar burada məskunlaşmışdılar.

Dağlar qoynundakı cənnət guşədə Şəki, Zaqatala toponimlərinin yaranmasında Saq etnonimi birbaşa iştirak etmişdir. Dünya dillərində ş-s-z səsləri bir-birinə keçir. Məsələn, "şeytan" sözü Avropa dillərində "satan" kimi işlənir. Biz "baş", "beş", "talış" deyirik. Qazaxlar və Qırğızlar isə "bas", "bes", "talas" deyirlər. Bizdəki Şəki toponimi Krımda "Saki" kimi tələffüz edilir. Müalicə kurortları ilə məşhurlaşmış şəhər dünyada "Saki" kimi tanınır. Yeri gəlmişkən, deyim ki, Azərbaycanda ikinci



Şəki ölkəmizin güneyindəki Zəngəzur vilayətindədir. Babəkin tutulduğu tarixi Şəki şəhəri erməni işğallarından sonra kəndə çevrilmiş, 1988-ci ilədək yaşamışdır. Quzeydəki Balakən toponimi tarixən Balasaqun (oxu: balasaq), Zaqatala isə Saq tala olmuşdur.

Əgər haylar indiki Qarabağın min illər öncə Artsax adlandırılması haqqında dəlil-sübut tapıblarsa, çox gözəl, alqışlayırıq. Amma bunun onlara nə aidiyyatı? Bəyəm onlar saq türklərinin törəmələridirlər? Bəlkə, Şəki, Zaqatala, Balakən bölgəsi də Hayastan imiş, xəbərimiz olmayıb. Və nə yaxşı ki, dəmir yumruq onların sərsəm başlarını əzdi, yoxsa Qarabağda uğur qazansaydılar qədim Sakaseni – Şəkini, Zaqtalanı, Balakəni də "Artsax"a qatacaqdılar.

Güman etmək olar ki, Almaniyanın Saksoniya əyalətinin Anqlosas termininin, İngiltərədə əfsanəvi Kral Arturun (Ərtur) saqlarla bağlılığı var. Bütün bunlar, ən önəmlisi dilimizlə, tariximizlə, coğrafiyamızla bağlı olan saqalar ciddi araşdırmalar tələb edir. Və bu araşdırmaların sonuclarını əcnəbi dillərdə nəşr etmək gərəkdir. Axı, bizlər əski türklərdən olan Saqların genlərini, dillərini daşıyırıq. Nədən indiyə qədər saqalar tərcüməsi ilə nəşr olunub xalqımızın ixtiyarına verilməmişdir? Təəssüf ki, sovet dönəmində, Stalin–Mikoyan antitürk despotizm dönəmində buna qəti yol verilmirdi. Belə təşəbbüs göstərmələr fiziki və mənəvi cəhətdən məhv edilirdilər. Rəhbər qurumlar, Azərbaycan Elmlər Akademiyası Moskvadan idarə olunurdu. Milli varlığa arxa çevirənlər buna imkan vermirdilər. Bəs indi niyə susqunluq davam edir? Əks halda katalikos dünya ermənilərini "Artsax" uğrunda ölüm-dirim savaşına çağırır. Qarabağ kimi Artsax da Azərbaycandır! Bunu bütün dünya bilməli və qəbul etməlidir.

***Fazil GÜNEY,***
***Əməkdar jurnalist, yazıçı, fəlsəfə doktoru***

# İndi heç kim Azərbaycanın təmkini ilə oynamağa cəhd eləməz

## Çünki bizim səbir kasamızın daşmasının nəticəsi artıq hamıya məlumdur

**(əvvəli 1-ci səhifədə)**

Həmin düşüncəsiz adamların sarsaq planlarının icrası zamanı Azərbaycan ərazilərinin 20 faizi yerlə-yeksan edildisə, Ermənistan iqtisadiyyatı otuz-qırx ildə dirçələ bilməyəcək vəziyyətə düşdü. Son nəticədə Azərbaycan dövləti zorən cəlb edildiyi – artıq tarixin zibilliyinə atılmış münaqişədən müasir dünyanın həm iqtisadi, həm də hərbi baxımdan ən güclü dövlətlərindən biri kimi çıxdısa, Ermənistanın həm ordusu darmadağın edildi, həm də iqtisadiyyatı tamamilə çökmüş halda miskinləşdi.

Münaqişənin sonunda Azərbaycan xalqı qalib xalq statusunu əldə etdisə, ermənilər 2020-ci ilin payızında kapitulyasiya aktına imza atmaqla, 2023-cü ilin sentyabrında isə otuz il əvvəl Azərbaycan ərazisində yaratdıqları ikinci erməni dövlətini məhz öz əlləri ilə qəbirə qoyan millət kimi rüsvay oldular.

İkinci Dünya müharibəsindən sonra dünyada baş vermiş çoxsaylı münaqişə və müharibələrdə kapitulyasiya aktının imzalanması və separatçıların öz dövlətini buraxması faktı olmamışdı. Başdanxarab hay ideoloq və siyasətçiləri taleyin bizə qonşu etdiyi erməni xalqını məhz bu rüsvayçılıqlarla xar etdilər. Ona görə də Azərbaycan Prezidenti deyir ki, ermənilər və onların havadarları bizim səbrimizlə oynamasınlar. Oynasalar... hələ itirəcəkləri çox şeyləri var.

Yeri gəlmişkən, dövlət başçımız səbir məsələsini yada salanda mən böyük şairimiz Mirzə Ələkbər Sabirin bir qəzəlinin son misrasını xatırladım: "Hansı bir müşküldü kim, səbr ilə asan olmasın?!"

Bəli, bütün problemlər səbirlə həll olunur. Azərbaycan həm ermənilərin xəyanətinə, həm onların himayədarlarının riyakarlığına, həm də, ümumiyyətlə, beynəlxalq aləmdəki ikili standartların ədalətsiz (həm də əxlaqsız) nəticələrinə otuz il möhtəşəm bir səbirlə dözdü, hər şeyin vaxtını, vədəsini gözlədi və əldə edilən nəticə də məhz möhtəşəm oldu. İndi ermənilər səbir eləsinlər. Biz də inanırıq, onların özləri də bilirlər ki, müasir Ermənistana bu ağılda adamlar rəhbərlik ediblərsə və bundan sonra da edəcəklərsə, bu xalq hansısa uğura nail olmaq üçün nəinki otuz il, bəlkə də bir əsr səbir etməli, gözləməli olacaq. O vaxta qədər isə ya xalq ölər, ya da Sarkisyan, Koçaryan, Balayan və başqalarının nəsli-kökü itər.

Cənab İlham Əliyev Zəngilanda dünya ictimaiyyətinə bir daha xatırlatdı ki, Ermənistan dövləti kriminal hərbi cinayətkarlar tərəfindən idarə olunan bir rejim idi. İki prezidenti Xocalı soyqırımında iştirak etmişdir. Onlar buna görə cavab verməlidirlər, məsuliyyət daşımalıdırlar. Onlar Azərbaycan torpaqlarını talayanlar idi. İyirmi il ərzində onlar əllərindən gələni edirdilər ki, bizim işğal olunmuş torpaqlarımızda bu taktikanı işlətsinlər. Həmin taktikanı Ermənistanda da tətbiq etməyə başladılar.

Azərbaycan Prezidentinin fikrincə, bu gün də erməni xalqı həmin xunta rəhbərlərinə nifrət edir. Ancaq hazırkı Ermənistan hakimiyyəti ilə bağlı olan ümidlər də sarsılmışdır. İndiki Ermənistan hakimiyyəti istəsəydi, Azərbaycanla sülhə gələrdi, bunu edə bilərdi. Azərbaycan buna hazır idi, beynəlxalq vasitəçilər bunu bilirdilər: "Keçmiş həmsədrlər bilirdilər ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün bərpası əsasında dinc yolla həll etməyə hazır idik. Biz Azərbaycandakı erməni azlığın hüquqlarını bərpa etməyə, təmin etməyə hazır idik. İndi isə müharibədən sonra və sonuncu hərbi əməliyyat ki, baş verdi, on gün əvvəl biz yenidən bunu bəyan etdik: Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik, onların dini, təhsil, mədəni, bələdiyyə hüquqları – beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlər həll ediləcək. Bu, Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək".

> ***Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsin. Bu gün Azərbaycana qarşı qəbuledilməz planlar cızan tərəflərə buradan mesaj verirəm: Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir.***
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti**
> **Zəngilan, 29 sentyabr, 2023-cü il**



Mən cənab Prezidentin çıxışındakı "Keçmiş həmsədrlər bilirdilər ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün bərpası əsasında dinc yolla həll etməyə hazır idik" – cümləsini təsadüfən yada salmadım. Belə ki, bu gün gah Fransadan, gah da ABŞ-dan səslər gəlir ki, bu münaqişənin həlli üçün (!?) kiməsə mandat verilsin, yaxud hansısa missiya göndərilsin, haradasa danışıqlar aparılsın və sair.

Əvvəla, əlində mandatı olan – üç güclü dövlətin həmsədrlik etdiyi məlum qrup otuz ildə nəyə nail olmuşdu ki, indi nə edə bilə?! İkinci, onların həll etməli olduğu münaqişə artıq Azərbaycanın hərbi-siyasi qüdrəti ilə həll edilib. Daha heç kəsin vasitəçiliyinə ehtiyacımız yoxdur. Bizim vasitəçimiz haqq-ədalət, beynəlxalq hüquqdur. Üçüncü, işğalçı dövlət otuz illik xəyanət və namərdliklərini etiraf edərək, "Azərbaycan bizim 1991-ci ildəki ərazi bütövlüyümüzü tanısın" – deyə yalvarırsa, separatçıların özləri öz "dövlətlərini" rəsmi sənədlə cəhənnəmə vasil etdisə, Paris niyə dilini bir sakit yerdə saxlamır? Yaxud, ABŞ-dakı erməni diasporu İrəvana kömək etməkdən vaz keçirsə, bu ölkənin siyasətçilərindən ibarət olan erməni lobbiçiləri niyə "Paşinyandan çox erməni olmaq" istəyirlər? Nəhayət, sonuncu, təkcə İrəvandakılar deyil, Vaşinqton və Parisdəkilər də bizim səbrimizlə oynamasınlar.

Bu sətirləri dövlət başçımızın məlum çıxışının son akkordları ilə yekunlaşdırırıq: "Biz 20 sentyabrda Qarabağdakı Ermənistan ordusuna bəyan etdik: silahlarınızı yerə qoyun və oraları tərk edin. Belə də oldu və bu, baş verdi. Yəni, biz sözümüzə, vədimizə əməl edirik, ona sadiqik. Əminəm ki, Ermənistan hökuməti bu hadisələri düzgün şəkildə təhlil etsə, "Qarabağ Ermənistandır!" bəyanatından sonra – 2019-cu ildə verilən bəyanatdan sonra 20 sentyabradək baş verənləri düzgün təhlil etsə, sülh əlçatandır. Bu, gələcəklə bağlı bizim baxışımızdır. Bu, regionun gələcəyi ilə bağlı baxışımızdır və hesab edirəm, beynəlxalq aktorlar və qonşular görəcəklər ki, bizim münasibətimiz konstruktivdir".

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

---

**Azərbaycanın bədənindəki "Artsax" adlı çiban kəsilib atıldı. Bundan sonrası "dezinfeksiya" prosedurudur. Erməni separatizmindən rişələnən həmin çibanın bir daha cücərməsinə heç bir halda yol verilməyəcək. Çünki Azərbaycan onu kökündən qoparıb atmaqla üzərində tam və qəti qələbə qazanıb.**

# Sülh "məlhəmi" və Femida

## İndi Ermənistanın ona daha çox ehtiyacı var



> ***Sentyabrın 20-dən sonra artıq zaman yetişib ki, bizim nümayəndələr əyləşsin və sülh sazişinin layihəsi üzərində işləsin. 20 sentyabrda biz suverenliyimizi artıq bərpa etmişik. Bundan sonra sülh sazişinin tezliklə imzalanması daha asan olacaqdır. Bununla yanaşı, təbii ki, gərək sərhədlərin delimitasiyası üzərində fəal surətdə çalışaq və uzun müddət sürən bu qarşıdurmaya son qoyaq. Azərbaycan sülh istəyir. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır.***
>
> **Azərbaycan Prezidenti İlham Əliyevin Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimindəki çıxışından**




Artıq Azərbaycanın suveren ərazisində nə "boz zona"lar qalıb, nə də qeyri-qanuni strukturlar. Qarabağımızda separatizmin zəhərli nəfəsindən qurtulmuş təmiz ab-hava, qara buludlardan təmizlənmiş açıq səma bərqərar olub. Hər şey ilkinə qayıtdığı kimi, əzəli yurdumuz da otuz ildən çox intizarında olduğu doğma sakinlərini qoynuna almağa başlayıb. İndi Vətənimizin bu cənnət guşəsində insanlarımız kimi, torpaq da sevinir. Üstü də, altı da sərvətlə zəngin Qarabağ torpağında ocağını qalayıb ömürlərini sürməyə başlayan keçmiş məcburi köçkün soydaşlarımızın qayıdışdan sonrakı ən böyük arzusu sülh və əmin-amanlıq şəraitində qurub-yaratmaqdır. Məgər bu bəşəri istək irqindən, dinindən, dərisinin rəngindən asılı olmayaraq, planetimizin bütün qitələrində yaşayan insanların arzusu deyilmi? Sülhə təşnə olanların onu məlhəm kimi qəbul etməsi təbii haldır. Bəli, Cənubi Qafqaz çoxdan intizarında olduğu sülhün yarım addımlığındadır.

* * *

Bölgədə son üç ildə cərəyan edən hadisələrin dinamikasına və xarakterinə nəzər yetirsək, görərik ki, əgər Ermənistan hakimiyyəti istəsəydi, Azərbaycanla sülhə gələ bilərdi. Çünki Vətən müharibəsində qazandığımız Zəfərdən sonra Azərbaycan buna hazır idi və bunu İrəvan iqtidarı da yaxşı bilirdi. Təəssüf ki, daxildəki daşnak-revanşist, kənardakı lobbi-diaspora təzyiqlərinə layiqli müqavimət göstərə bilməyən Paşinyan komandası özünü addım-addım görünən uçurumun kənarına sürüklədi. İndi irəliyə addım atılası məsafə qalmayıb, son nöqtəyə çatıblar və real təhlükədən qurtuluşları yalnız sülhə gəlməkdir. Azərbaycan hətta bu vəziyyətdə belə xəyanətkar qonşusu ilə də humanist davranış sərgiləyir. Bakı Qarabağdakı erməni azlığın hüquq və təhlükəsizliyini təmin etməyə, onlara ölkənin digər etnik azlıqları kimi, bütün şəraiti və imtiyazları yaratmağa hazır olduğunu açıq şəkildə bəyan edib. Bu, qalib dövlətin məğlub ölkəyə təklif edə biləcəyindən daha böyük güzəştdir.

Bu təminatı onlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dilindən eşidiblər: "Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik, onların dini, təhsil, mədəni, bələdiyyə hüquqları – beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlər həll ediləcək. Bu, Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək".

Dövlətimizin başçısı Ermənistanın ərazi bütövlüyünü Azərbaycanın tanıdığını növbəti dəfə dünyaya bəyan etdi. "Yəni, bizim başqa niyyətlərimiz olsaydı, əməliyyat sentyabrın 20-də dayanmazdı. Mən bunu hər kəsin bilməsini istəyirəm. Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsin, bu gün Azərbaycana qarşı qəbuledilməz planlar cızan tərəflərə buradan mesaj verirəm! Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir".

Prezident İlham Əliyevin bu çağırışının İrəvanda düzgün dəyərləndiriləcəyinə inansaq, deməli, oktyabrın 5-də Aİ-nin Qranada sammitində iki ölkə arasında ilkin sülh sazişinin imzalanması perspektivi real görünməkdədir.

Ədalət və qətiyyət! Sarsılmaz siyasi iradənin göstərici sayıla biləcək bu dəyərləri Azərbaycan öz liderinin simasında hər zaman gözlədi və nümayiş etdirdi. Azərbaycan hökuməti Ermənistanla sülhə hazır olduğunu göstərir. Sülhə nail olmaq üçün Bakının konkret təklifləri çoxdan danışıqlar masasının üzərinə qoyulub. Bunlar kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin işə salınması, sərhədlərin delimitasiyası, anklavların geri qaytarılması və ticarət əlaqələrinin bərpasıdır. Cənubi Qafqazda uzun fasilədən sonra dayanıqlı sülhün bərqərar olmasının Azərbaycandan çox Ermənistanın maraqlarına cavab verdiyini söyləyə bilərik. Çünki İrəvan Zəngəzur dəhlizi vasitəsilə İranla, Rusiya ilə, ərazimizdən keçməklə Orta Asiya ilə əlaqə yaratmaq şansını əldə edəcək. Bu isə haylar üçün əməkdaşlıq imkanları, tərəqqi fürsəti deməkdir. Ermənistanın, ilk növbədə, Azərbaycan və Türkiyə ilə əməkdaşlıqdan dividendlər qazanacağı şəksizdir.

* * *

On illər boyu işğalçı Ermənistan təcavüzkar mövqeyi, radikal-hərbi ritorikası ilə özünü bölgədə təcrid olunmuş vəziyyətə gətirib çıxardı. Bəs onun qazancı nə oldu? İqtisadi tənəzzül, klanların formalaşdırdığı korrupsiya zənciri, cəmiyyətdə misli görünməmiş təbəqələşmə, xaricə miqrasiyanın ildən-ilə, gündən-günə çoxalması. 44 günlük savaşda biabırcasına uduzan, əsgər itkisinin və fərarilərin sayını bu günədək dəqiqləşdirə bilməyən bir ölkə sülhə gəlmək əvəzinə, revanş götürmək kimi xam xəyallara qapıldı. Sülh danışıqları üzrə prosesi qəsdən uzatmaqla nəyə nail olmağa çalışdığını özü üçün də tam aydınlaşdırmaqda çətinlik çəkən İrəvan iqtidarı sərhəddə silahlı təxribatlardan tutmuş danışıqlar masasında diplomatik avantüralara kimi təhlükəli və zərərli təşəbbüslərə baş vurdu. Bu zaman arxalandığı, güvəndiyi tərəfdaşlarından, himayədarlarından gözlədiyi dəstəyi görməyəndə yenə silaha əl atdı. Amma bu, Azərbaycan iqtidarının səbir kasasını daşdıran sonuncu damla oldu. Və avantüristlərin, separatçıların və onları qarşıdurmaya sürükləyənlərin son və qəti cavabını verməkdən ötrü Azərbaycana cəmi bir sutka kifayət elədi. Ermənistan ordusunun Qarabağda qalmış tör-töküntüsü darmadağın edildi. Ölən öldü, qaçan qaçdı. Qondarma "artsax respublikası" sabun köpüyü tək bir gecədə havaya buxarlandı. Amma separatçı-xunta rejiminin "liderlərinin", "dqr" rəsmilərinin Femida qarşısında cavab verəcəkləri gün hələ qabaqdadır...

* * *

Aydın məsələdir ki, törətdikləri hərbi cinayətlərə görə barələrində istintaq başladılmış separatçı-xuntaçıların üzdəgedənlərinin öz layiqli cəzalarını alması tarixi ədalətin bərpası ilə yanaşı, həm də görk, ibrət məsələsidir. Artıq vardanyanlar, xaçatryanlar, balasanyanlar, manukyanlar, mnatsakanyanlar və daha neçə-neçə "yan"lar Bakının təcridxanalarında mühakimə prosesini və tribunalın hökmünü gözləməkdədirlər. Adları Azərbaycanın hüquq-mühafizə orqanlarına çoxdan bəlli olan bu daşnak tör-töküntülərinin məhkəmə prosesinin hansı formada aparılacağı indidən çoxlarının marağına səbəb olub.

Bununla bağlı ölkənin sabiq xarici işlər naziri Tofiq Zülfüqarovun açıqlamasına diqqət yetirək: "Mənə elə gəlir ki, bu, 1946-cı ilin Nürnberq Məhkəməsinə bənzər bir proses olacaq. Həmin prosesdə nasist mahiyyətli "miatsum" layihəsini ideoloji cəhətdən əsaslandıran, onu daha sonra həm də etnik təmizləmə şəklində reallaşdıran sexakronizm ideologiyası mühakimə olunacaq. Ona görə də prosesə cəlb olunacaq beynəlxalq hüquqşünasların iştirakı ilə bu ideologiya açıq şəkildə lənətlənməlidir. Səfirlər, beynəlxalq ekspertlər, təşkilat və qurumların rəsmiləri separatçıların Azərbaycan xalqına qarşı törətdikləri vandalizm aktlarını canilərin öz dillərindən eşidə biləcəklər".

Təcrübəli diplomatın sözlərinə görə, burada söhbət təkcə Azərbaycana və azərbaycanlılara qarşı törədilən təcavüzkar, qəddar hərəkətlərdən deyil, eyni zamanda, Ermənistana və onun diasporuna hakim kəsilən bir ideologiyanın həyata keçirilməsindən gedir: "Əslində, bu, həmin ideologiyanı məhkəməyə çıxarmaq üçün bir səbəbdir. Və bu məhkəmə onlar üçün "taleyüklü layihəyə" siyasi nöqtənin qoyulması demək olacaq. Bu layihənin praktiki olaraq tarixə gömülməsi gözümüzün qarşısında baş verir. Əl atdıqları sonuncu "taktikalarından" görürük ki, onlar hər şeylərini itirdiklərinə görə, baş verənləri "etnik təmizləmə" adlandıraraq, dünya ictimaiyyətini yenə aldatmağa çalışırlar".

* * *

Bütün dünya gördü ki, Azərbaycan hətta düşməninə qarşı xoş məramını, sülhpərvər imicini sona kimi qoruyub saxlamağı bacaran dövlətdir. Ötən əsrin 80-ci illərinin ortalarına qədər azərbaycanlılar və etnik ermənilər Qarabağda yan-yana, sülh və dinc şəraitdə yaşayıblar. Bu gün Azərbaycanda 30 minlik yəhudi icması var. Yevangeliya xristianlarının icması böyüməkdədir. Gürcülər, ruslar, ukraynalılar, molokanlar hamısı bu gün çoxmillətli və çoxkonfessiyalı Azərbaycanın ayrılmaz tərkib hissəsi sayılır. Bu, Qarabağ ermənilərinə də aid ola bilər və olmalıdır. Nəhayət, erməni xalqı anlamalıdır ki, Azərbaycan müharibə deyil, sülh istəyir. Amma ədalətli sülh istəyir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycanın gələcəyini quran lider

**Ümummilli lider Heydər Əliyev müstəqillik illərində keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə oxumağa göndərdiyi tələbələrlə görüşəndə söz açarkən demişdi: “70-ci – 80-ci illərdə Azərbaycandan kənar ali məktəblərə göndərilən insanlar mənim doğma övladlarımdır”. Həmin gənclərdən biri kimi mən bu sözlərin necə yüksək məna daşımasından hədsiz şərəf duyuram, eyni zamanda, bu öyüncün arxasındakı məsuliyyəti də dərindən anlayıram.**

O zaman mən pedaqoji kollec bitirmiş bir kənd müəllimi idim. Ali təhsil almaq istəyirdim. 1976-cı ildə qəbul üçün sənədlərimi təqdim edərkən o vaxtkı SSRİ-nin müxtəlif şəhərlərində tanınmış ali məktəblərə müsabiqədənkənar qəbul haqqında məlumat alan kimi düşünmədən Leninqrad Dövlət Universitetinin şərqşünaslıq fakültəsini seçdim. Məlum oldu ki, bu ali məktəblərə qəbul məsələsinə respublika rəhbəri Heydər Əliyev xüsusi diqqət göstərir.

heç vaxt unudulmayacaq xatirələrdir.

Beləcə, ümummilli lider Heydər Əliyevin sayəsində aldığım ali təhsil mənim həyatımı büsbütün dəyişdirdi. 1981-ci ildə təhsilimi başa vurduqdan sonra böyük fəxrlə ilk indoneziyaşünas kimi Azərbaycana qayıtdım.

Azərbaycan müstəqillik əldə etdikdən sonra İndoneziya ilə də əlaqələr yaranmağa başladı. Mən bir mütəxəssis kimi bu əlaqələrin qurulmasında fəal iştirak etmiş və işimdən zövq almışam.

dur. Mənə dedilər ki, sizin – 70-ci – 80-ci illərdə Azərbaycandan müsabiqədənkənar keçmiş Sovetlər İttifaqının, xüsusilə Moskva, Leninqrad və başqa böyük şəhərlərinin ali məktəblərinə göndərilmiş tələbələrin də cəmiyyəti yaranıbdır və bu cəmiyyətin nümayəndələri mənimlə görüşmək istəyir. Bilirsiniz, mən bunu qəbul etdim, çünki bu insanlar, yəni 70-ci–80-ci illərdə bu ali məktəblərə göndərilən insanlar mənim doğma övladlarımdır”.

Bu, həqiqətən, ulu öndərin bizə övlad münasibəti idi. Görüşdə Prezident bizim hər birimizi dinlədi. Mən çıxış edərkən aramızda yaranmış dialoqu da talenin bir töhfəsi kimi xatırlayıram:

– Hörmətli cənab Prezident! Sizin minlərlə xidmətinizdən mən yalnız ikisini qeyd etmək istəyirəm. O biri xidmətləriniz olmasaydı, yalnız bu iki xidmətə görə Siz Azərbaycanın tarixinə düşmüş olardınız. Bunlardan biri 1993-cü ildə bir rayondan o biri rayona getmək mümkün olmayan bir şəraitdə, hər kəsin yolda bir tank qoyub özünə bir xanlıq, şahlıq yaratdığı bir vaxtda Siz Azərbaycanı parçalanmaq bəlasından qurtardınız. Bu, Sizin ən böyük xidmətlərinizdən biridir. İkinci xidmətiniz isə Sizin 70 – 80-ci illərdə böyük sayda tələbə ordusunu Azərbaycandan xaricə nadir ixtisaslar üzrə ali təhsil alamağa göndərməyinizdir. İndi həmin mütəxəssislərin bilik və bacarıqları müstəqilliyini yeni əldə etmiş ölkəmiz üçün çox əhəmiyyətlidir. Bu, Sizin üzaqgörən siyasətinizin məhsuludur. Bunlar çox böyük xidmətlərdir. Bu gün burada Sizinlə görüşə bilməyimiz isə bizə verdiyiniz böyük dəyərin göstəricisidir. Mən Salyan rayonunun adı Azərbaycanın xəritəsinə düşməyən bir kəndindənəm və heç ağlıma da gəlməzdi ki, nə vaxtsa Peterburq Dövlət Universitetinin şərqşünaslıq fakültəsində oxuya bilərəm.





Həmin il mən arzuma çatdım – LDU-da indoneziyaşünaslıq şöbəsinə daxil oldum. Avqustun sonunda, ovaxtkı ənənəyə uyğun olaraq, Heydər Əliyev kənar ali məktəblərə qəbul olunmuş tələbələrlə görüşüb onları təbrik etdi. Ulu öndər öz tövsiyələrini söyləyəndə bildirdi ki, biz gələcəkdə Azərbaycanın həyatında böyük rol oynayacağıq və ona görə də yaxşı oxumağımız çox vacibdir. Bu mənim ulu öndərlə ilk görüşüm idi. Onun tövsiyələri təhsil aldığım illər boyu daim qulaqlarımda ata nəsihəti kimi səsləndi. Göstərilmiş etimadı doğrultmaq üçün var qüvvəmlə çalışdım.

Ulu öndər Heydər Əliyevin tapşırığı ilə kasıb ailələrdən olan tələbələrə, o cümlədən, mənə Azərbaycandan maddi yardım da göstərilirdi. Nə vaxt müraciət edirdiksə, ehtiyacımız olan yardımı ala bilirdik. Başqa heç bir respublikanın tələbələrinə belə qayğı göstərilmirdi. Bir sözlə, bizim yaxşı təhsil almağımız üçün hər cür şərait yaradılmışdı. Bütün bunlar Həmişə də ulu öndərin o vaxt gəncləri SSRİ-nin qabaqcıl ali məktəblərinə nadir ixtisaslar üzrə təhsil almağa göndərməsini, onun nə qədər üzaqgörən olduğunu xatırlamış, qəlbən ona minnətdarlıq ifadə etmişəm.

1998-ci ilin mayında anadan olmasının 75 illiyi münasibətilə Heydər Əliyevi təbrik etmək üçün onunla görüşmək istəyənlərin sayı-hesabı yox idi. Arzu edənlərin hamısı ilə görüşmək, əlbəttə, mümkün deyildi. Görüş üçün Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatının üzvlərindən mənim də daxil olduğum bir qrup da müraciət etmişdi. Xoşbəxtik ki, bu unudulmaz görüş baş tutdu.

Həmin görüşdə Heydər Əliyevin bizi duyğulandıran fikirləri indi də yadıma düşəndə kövrəlirəm. Ulu öndər həmin gün dedi: “Birincisi, mən sizinlə görüşümdən çox məmnunam. Bilirsiniz, mənim 75 yaşım münasibətilə indi mənimlə görüşmək istəyən insanlar çox-

– Hansı universitetin?

– Ovaxtkı Leninqrad Dövlət Universitetinin şərqşünaslıq fakültəsində.

– Leninqrad!

– Bəli. Həm də çoxlarının, bəlkə də, eşitmədiyi İndoneziya dili şöbəsinə.

– İndoneziya!

– Bəli. Bu gün mən fəxr edirəm ki, Azərbaycanda belə bir dilə, belə bir ixtisasa yiyələnən var. Son illər mən bir neçə tələbə də yetişdirirəm. Keçən il İndoneziyanın Türkiyədəki, həm də Azərbaycandakı səfiri buraya gələndə biz onunla görüşdük. O çox sevindi və dedi ki, 60 milyonluq Türkiyədə İndoneziya dilində danışan bir adam tapmadım, amma, maşallah, sizin Azərbaycanda mütəxəssis var.

– Unutmamısan ki bu dili?

– Xeyr. Bir neçə gün əvvəl İndoneziyanın Xarici İşlər Nazirliyinin nümayəndələri müqavilələr imzalamağa gəlmişdilər. Onların görüşündə iştirak etdim və danışıqları tərcümə etdim. Əlbəttə, unutmamışam. Bütün bunlara görə mən bir daha Sizə minnətdarlığımı ifadə edir və ümidvar olduğumu bildirirəm ki, Siz hələ uzun zaman Azərbaycana rəhbərlik edəcəksiniz və Azərbaycan bizim hamımızın arzu etdiyimiz çiçəklənən bir ölkəyə çevriləcəkdir. İcazə verin, Sizi 75 illiyiniz münasibətilə təbrik edim, Sizə uzun ömür, möhkəm sağlamlıq arzulayım. Sağ olun.

Ulu öndərlə başqa bir görüşlə bağlı da xatirəm var. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin adı ilə bağlı geniş müzakirələr aparılırdı. Yekun müzakirə Prezident Aparatında Heydər Əliyevin sədrliyi ilə keçirildi. İclasda mən də iştirak edirdim. Cənab Prezident, – dilimizin necə adlandırılmasına əvvəlcədən özü heç bir münasibət bildirmədən,– çıxış edənləri, irəli sürülən təklifləri təmkinlə və diqqətlə dinlədi. Mən də fikir bildirməyi qərarlaşdırmışdım. Fikrimi iki ölkə nümunəsi üzərində quracaqdım: “Tarixən əhalisi ümumi mənşəyə malik müxtəlif etnoslardan ibarət olan və ortaq dil kimi malay dilndə danışan İndoneziya və Malayziya müstəmləkə sistemi dağıldıqdan sonra müstəqillik əldə etdilər. Bundan sonra İndoneziya Respublikasının dövlət dili onun Konstitusiyasında “İndoneziya dili”, Malayziya Federasiyasının dövlət dili isə “malay dili” kimi təsbit olundu. Bu qərar böyük siyasi yük daşıyırdı”.

Həmin nümunəyə uyğun olaraq mən dövlət dilimizin “Azərbaycan dili” adlandırılmasını təklif edəcəkdim. Lakin çıxışlar çox olduğundan Heydər Əliyev müzakirəni dayandırdı və beləliklə, mənim fikir bildirmək imkanım olmadı. Amma onsuz da bir neçə məruzəçi dilimizin “Azərbaycan dili” adlandırılmasının daha doğru olması fikrini səsləndirmişdi. Müzakirəyə yekun vuran ulu öndər “Azərbaycan dili” adının üzərində dayandı və onu hərtərfli əsaslandırdı. Mən fikirlərimizin üst-üstə düşməsindən çox məmnun oldum.

Təəssüf ki, ulu öndərin görüşlərindən yalnız birində tərcüməçi kimi iştirak etmişəm. Ümummilli liderin İndoneziya Respublikasının Azərbaycanda akkreditə olunmuş səfiri ilə keçirdiyi görüşündə tərcüməçi idim və bu da dahi şəxsiyyətin mənə qazandırdığı peşə ilə ona xidmətimin kiçik bir nümunəsi kimi yaddaşımda əbədi yer alıb.

2004-cü ildə “Heydər Əliyev irsi” Beynəlxalq Elektron Kitabxanası fəaliyyətə başladı. Mən elektron qaynağın tərcüməçilərindən biri kimi, təxminən, 5 il ərzində ümummilli liderin bütün nitq və məruzələrini, müraciətlərini, görüşlərinin mətnlərini İndoneziya dilinə tərcümə etmişəm. Hər bir mətnin tərcüməsi mənim xatirimdə Heydər Əliyevlə mənəvi ünsiyyət kimi qalıb. Onun dilinin zənginliyi, etdiyi çıxışların mükəmməlliyi, eyni zamanda, sadəliyi hər tərcümə prosesində məndə heyrət doğururdu. Amma, əlbəttə, çətinliklər də olurdu. Ən çox çətinlik ulu öndərin işlətdiyi sinonimlərin, sintaktik paralellərin tərcüməsində yaranırdı.

Bu qısa xatiratımı həyatımda müstəsna rolu olmuş, lakin müqabilini arzu etdiyim şəkildə verə bilmədiyim Ümummilli liderə minnətdarlığımın, sonsuz ehtiramımın ifadəsi kimi qələmə aldım.

***Həbib ZƏRBƏLİYEV,***
***AMEA Dilçilik İnstitutunun baş elmi işçisi, professor***

# Dövlətçilik tariximizdə Heydər Əliyev fenomeni



**“Heydər Əliyev İli” çərçivəsində sentyabrın 29-da Gəncə şəhərində Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının gənclərlə növbəti görüşü keçirilib.**

Tədbirdə partiyanın Gəncə şəhər, Naftalan, Daşkəsən, Goranboy, Göygöl, Samux və Kəlbəcər rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini bildirib.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyən B.Aslanov dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının vacib olduğunu söyləyib.

YAP Veteranlar Şurasının üzvü, professor Misir Mərdanov, YAP Veteranlar Şurasının üzvü, professor Vahid Novruzov və başqaları vurğulayıblar ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının yeni nəslə təşviq edilməsidir. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

***XQ***

# “3 dənizin əfsanəsi”

**Sovet dövründə “qara qızıl”ın – neftin xalqımızı ağ günə çıxaracağı əfsanə sayılırdı. Lakin XXI əsrin astanasında bu xülya gerçəkləşdi. Bu, yalnız ona məxsus nüfuzedici müdrik baxışları ilə qaranlığın sonunda gur işıq seli sezərək, Xəzərin ən böyük əfsanəsini reallaşdıran və özü də əfsanəyə çevrilən Heydər Əliyevin uzaqgörən siyasəti ilə mümkün oldu.**




YAP Yasamal rayon təşkilatında təqdim olunan “Üç dəniz əfsanəsi” sənədli filmi bu danilmaz həqiqət haqqındadır. Filmin ideya müəllifi Ülviyyə Abdullayeva, ssenari müəllifi İlhamə Novruzova, quruluşçu rejissoru Əlihüseyn Məlikov, prodüseri Firuzə Cəlilova, məsləhətçisi Mehriban Alışanovadır.

Ulu öndərin 100 illik yubileyinə həsr olunan filmdə Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru kəmərinin önəmi ilə yanaşı, böyük siyasi mahiyyətindən bəhs edilir. Bildirilir ki, məhz dünyaşöhrətli siyasətçi Heydər Əliyevin şah əsərlərindən olan “Əsrin müqaviləsi” ölkəmizin iqtisadi həyatında çox mühüm rol oynadı.

Sənədli kadrlarda möhtəşəm neft kəmərinin inşası ilə bağlı Heydər Əliyevin verdiyi qərar və həmin illərdəki mürəkkəb tarixi şərait, xaricdən göstərilən təzyiqlərə rəğmən bu prosesdə Azərbaycanın milli maraqlarının qorunub saxlanılması, Bakı–Tbilisi–Ceyhan kəmərinin maliyyələşməsinə mane olan amillər və onun həllinin tapılmasında Heydər Əliyev fenomeninin rolu tarixi faktlarla açıqlanır, “Üç dəniz əfsanəsi”nin hazırkı inkişafından və bu unikal neft strategiyasının Qarabağ münaqişəsinin həllindəki rolu diqqətə çatdırılır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Xəzər, Qara dəniz və Ağ dənizi birləşdirən bu tarixi kəməri “Üç dəniz əfsanəsi” adlandırırdı.

Filmdə Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun rəhbəri Valeh Ələsgərov, Azərbaycanın 1993–1998-ci illərdə xarici işlər naziri olan Həsən Həsənov və Türkiyənin ADCO neft qatqıları şirkətinin rəhbəri Selçuk Akat ulu öndərin layihənin həyata keçirilməsindəki rolu ilə bağlı xatirələrini bölüşürlər.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “İnkişafa Doğru İnteqrasiya” İctimai Birliyinin ərsəyə gətirdiyi filmin təqdimat mərasimində Milli Məclisin deputatları Sadiq Qurbanov, Jalə Əhmədova, Vüqar İskəndərov, Məzahir Əfəndiyev, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva və başqaları çıxış edərək “Üç dəniz əfsanəsi” mövzusunun uğurlu ekran həllindən, filmin yaradıcı heyətinin ideyaya peşəkar yanaşma tərzindən və mövzunun ekspert mülahizələri ilə çatdırılmasından danışıblar.

“Üç dəniz əfsanəsi” ulu öndərin 100 illiyinə layiqli töhfədir.

***XQ***

# Prokurorluq işçiləri peşə bayramını qeyd edirlər

**Bu gün ölkəmizdə prokurorluq işçilərinin peşə bayramı qeyd olunur. Bu münasibətlə Mingəçevir Şəhər Prokurorluğunda keçirilən toplantıda müstəqilliyimizin qorunmasında və inkişaf etdirilməsində, hüquqi-demokratik dövlət quruculuğunda prokurorluq orqanlarının gördüyü işlərdən, qarşısında duran məsul vəzifələrdən söhbət açıldı.**



Prokurorluq işçiləri ilə yanaşı, Mingəçevir şəhər rəhbərliyinin, prokurorluq veteranlarının, hüquq-mühafizə orqanları və media nümayəndələrinin iştirak etdikləri məclisdə şəhər prokuroru Qabil Səfərov respublika prokurorluğunun yaranmasından keçən 105 ilə nəzər saldı, əlamətdar gün ilə bağlı həmkarlarına xoş arzularını çatdırdı. Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının müavini Hikmət Kərimov Mingəçevir prokurorluq işçilərini peşə bayramları münasibəti ilə təbrik etdi. Onlara xidməti fəaliyyətlərində yeni uğurlar arzuladı.

Şəhər prokurorunun böyük köməkçisi İsmayıl Məmmədli respublikanın Baş prokuroru Kamran Əliyevin peşə bayramı münasibətilə təbrikini kollektivə çatdırdı. Şəhər prokurorunun müavini Balahüseyn Şabanov, prokurorluq veteranı Kamil Yunusov, şəhər polis şöbəsinin rəisi Ədalət Əliyev də prokurorluq işçilərini peşə bayramları münasibəti ilə təbrik etdilər.

Sonda prokurorluq veteranlarına hədiyyələr təqdim olundu.

***İlqar HƏSƏNOV, XQ-nin bölgə müxbiri***

# Milli Qəhrəman Riad Əhmədovun dəfn mərasimi



**Sentyabrın 30-da Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədovun vida və dəfn mərasimi keçirilib.**

Mərasimdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini Şərafət Həsənov bildirib ki, dövlətimiz Riad Əhmədovun axtarışı ilə hər zaman məşğul olub. Lakin heç bir nəticə əldə edilməyib.

Rəis müavini deyib ki, Vətən müharibəsindən sonra Şuşa və Daşaltı ətrafında Milli Qəhrəmanın axtarışları davam etdirilib. Axtarışlar nəticəsində şəhidlərimizin nəşi tapılıb.

Riad Əhmədovun döyüş yoldaşı, Daşaltı əməliyyatının iştirakçısı İlyas İsmayılov vurğulayıb ki, Riad əməliyyat zamanı yaralansa da, bunu büruzə vermirdi, döyüşə yaralı vəziyyətdə davam edirdi.

Riad Əhmədovun bacısı Mehriban Əhmədova çıxışı zamanı bildirib: "Qardaşım Azərbaycanın ilk Milli qəhrəmanlarındandır. Onu çox vətənpərvər biri kimi tanıyıblar. Bizim üçün Riadın yoxluğunu yaşamaq, hiss etmək çox çətindir. Biz bu faciəni 31 il bundan öncə yaşamışıq. Ona həsr olunmuş bu vida mərasimi bir daha sübut etdi ki, Vətənin azadlığı uğrunda canlarını fəda edənlər heç vaxt unudulmur".

Digər çıxış edənlər Milli Qəhrəman Riad Əhmədov barədə xatirələrini bölüşüb, onun vətənpərvərlik, qəhrəmanlıq, igidlik rəmzi olduğunu vurğulayıblar.

Sonra Riad Əhmədovun İkinci Fəxri xiyabanda dəfn mərasimi keçirilib. Mərasimdə şəhidin ruhuna dualar oxunub, məzarı üzərinə tər güllər düzülüb. Milli Qəhrəmanın xatirəsinə ehtiram əlaməti olaraq 3 dəfə yaylım atəşi açılıb, Dövlət Himni səsləndirilib.

Qeyd edək ki, Əhmədov Riad Fikrət oğlu 1992-ci ildə Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsində çalışıb. O, 1992-ci il yanvarın 26-da rəhbərlik etdiyi kəşfiyyat qrupu ilə Daşaltı kəndindəki döyüşdə yaralanaraq itkin düşüb. Uzun illər yeri müəyyən olunmayıb.

***XQ***

# Elmar Məmmədov 31 ildən sonra dəfn olunub

**Otuz bir il əvvəl Birinci Qarabağ müharibəsi zamanı Daşaltı uğrunda gedən döyüşlər zamanı itkin düşən şəhid Məmmədov Elmar İnqilab oğlu ilə sentyabrın 30-da Şamaxının Cümə məscidində vida mərasimi keçirilib.**



Mərasimdə şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, hökumət və ictimaiyyət nümayəndələri, rayon sakinləri, qazilər, şəhid ailələri, media nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra şəhid Elmar Məmmədovun nəşinin qalıqları rayonun Şəhidlər xiyabanında torpağa tapşırılıb. Şəhidin nəşinin büküldüyü üçrəngli Azərbaycan Bayrağı oğluna təqdim olunub.

Qeyd edək ki, Elmar Məmmədov 1967-ci il mayın 25-də Bakıda dünyaya gəlib. O, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib və cəbhəyə yollanıb. Qəhrəman döyüşçü silahdaşları ilə birlikdə Tərtər, Goranboy, Quşçular və Malıbəyli uğrunda döyüşlərdə düşmənə ağır zərbələr endirib. Onun sonuncu döyüşü 1992-ci il yanvarın 26-da Daşaltı kəndində olub.

***XQ***

# Ukraynalı uşaqlar reabilitasiya üçün Azərbaycana gəlirlər



**Ukraynadakı müharibədən əziyyət çəkən daha bir qrup ukraynalı uşaq Azərbaycana yola salınıb.**

Yolasalma mərasimində Ukrayna Ali Radası sədrinin müavini Olena Kondratyuk, Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev və digər şəxslər iştirak ediblər.

O.Kondratyuk bildirib ki, valideynləri hazırda cəbhədə olan uşaqlar iki həftə ərzində "Qəbələ" tibb-sağlamlıq mərkəzində tibbi reabilitasiya kursu keçəcəklər.

Vitse-spiker vurğulayıb ki, 29 ukraynalı uşağın Azərbaycanda qalması ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məşğul olur.

Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev uşaqlara yaxşı istirahət, sağalma və yeni təəssüratlarla evə qayıtmalarını arzulayıb.

***XQ***

# Xankəndiyə 7 tibbi yardım maşını göndərilib



**Xankəndi şəhərinə 7 təcili tibbi yardım avtomobili göndərilib.**

Təcili tibbi yardım avtomobilləri həkim heyəti ilə Xankəndidə təcili tibbi yardım və müayinə işinin təşkili məqsədilə yola düşüb.

***XQ***

# BMT: "Qarabağı tərk edənlərlə pis rəftar qeydə alınmayıb"

**"Birləşmiş Millətlər Təşkilatı (BMT) Azərbaycanın Qarabağ bölgəsini öz istəkləri ilə tərk edərək Ermənistana köçən erməni sakinlərə qarşı pis rəftarla bağlı heç bir fakt qeydə almayıb".**



"Anadolu" agentliyi xəbər verir ki, bunu BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ermənistandakı nümayəndəsi Kavita Belani BMT-nin Cenevrə ofisinin həftəlik mətbuat konfransında onlayn çıxışı zamanı bildirib.

"Bilirəm ki, indiyədək heç bir insident, pis rəftar halları ilə bağlı heç bir fakt yoxdur. Bu, uzun yoldur, tıxaclar insanlar üçün çətinlik yaradır. Lakin azərbaycanlılar tərəfindən pis rəftar halları qeydə alınmayıb", – o deyib.

BMT nümayəndəsinin sözlərinə görə, bir həftədən az müddətdə 88,7 mindən çox insan Qarabağı tərk edərək Ermənistana gedib.

***XQ***

# Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat

**Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə sentyabrın 30-u saat 18:00-a olan məlumat. Həmin məlumatı təqdim edir.**

**SİLAHLAR**

1. Atıcı silahlar – 2585
2. Qumbaraatanlar – 224
3. Top və haubitsalar – 53
4. Minaatanlar – 63
5. Tankəleyhinə silahlar – 54
6. HHM silahları – 135

**TEXNİKA**

1. Zirehli texnika – 22
2. Avtomobil texnikası – 174
3. Qoşqular – 21
4. Yardımçı texnika – 9

**DÖYÜŞ SURSATLARI**

1. Raketlər – 1685
2. Top və haubitsa mərmiləri – 4956
3. Zenit top mərmiləri – 2627
4. Minaatan mərmiləri – 12305
5. Qumbaralar – 5419
6. Əl qumbaraları – 3036
7. Patronlar – 1976068
8. Digər sursatlar – 5751




**CİHAZLAR**

1. Optik cihazlar – 280
2. Digər cihazlar – 37

**TƏCHİZAT**

1. Fərdi təchizat vasitələri – 997
2. Müxtəlif silahların qurğuları – 15
3. Digər təchizat vasitələri – 2260

***XQ***

# IDEA Xəzər sahillərini qorumağa çağırır



**Sumqayıt şəhər Corat qəsəbəsi daxilində yerləşən çimərlikdə sahilyanı təmizlik aksiyası keçirilib, 3 hektardan artıq sahil zolağı plastik və digər tullantılardan təmizlənib.**

Aksiya Beynəlxalq Dəniz Günü ilə əlaqədar ölkəmizdə qeyd edilən "Xəzər həftəsi" çərçivəsində IDEA İctimai Birliyi və Bakı Dövlət Universitetinin "Ekologiya və torpaqşünaslıq" fakültəsinin birgə təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Təmiz Şəhər" ASC-nin dəstəyi ilə təşkil olunub.

Tədbirin keçirilməsində məqsəd sahilyanı ərazilərin məişət tullantıları ilə çirklənməsinin qarşısını almaq, Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaqdır.

"Xəzər həftəsi" çərçivəsində keçirilən təmizlik aksiyası dənizin ekoloji cəhətdən saflığının qorunmasına, onun sərvətlərinin mühafizə olunmasına, eyni zamanda, ictimaiyyətin maarifləndirilməsinə xidmət edir. IDEA İctimai Birliyi hər kəsi Xəzər dənizinin sahillərini çirklənmədən qorumağa və onun sərvətlərinin mühafizə olunmasında birlikdə olmağa çağırır.

***XQ***

# Bakının 547 küçəsi yuyuldu



**Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) təşkilatçılığı ilə sentyabrın 30-da paytaxtda payız mövsümünün gəlişi, təmizlik və abadlıqla bağlı növbəti daxili iməcilik keçirilib.**

Səhər saatlarından etibarən BŞİH-nin kommunal təsərrüfat xidmətlərinin texnikası tərəfindən şəhərin 547 əsas küçə və prospektlərin, həmçinin qəsəbələrdəki yolların təbiətə ziyanı olmayan vasitələrlə yuyulması təmin edilib, eyni zamanda, digər təmizlik və abadlıq işləri həyata keçirilib.

***XQ***

GÜNÜN TƏLƏBİ

# Yüksək xidmət – aşağı qiymət

## *Çağdaş taksi fəaliyyəti bu yöndə yeniləşirmi?*




(əvvəli 1-ci səhifədə)

Xatırladaq ki, son illər taksi fəaliyyəti ilə məşğul olan bəzi sürücülərin sərnişinlərlə kobud rəftarı, xidmət zamanı yol verdikləri xoşagəlməz davranışlar cəmiyyətdə haqlı narazılıqlara gətirib çıxarırdı. Qanuna edilən dəyişikliklərə əsasən, indən belə taksi minik avtomobillərinin sürücüləri etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçməlidirlər. Xüsusi hazırlığın nəticələrinə dair daşıyıcılarla və ya sürücülərlə bağlanmış müqavilə əsasında Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən 7 il müddətində etibarlı olan sənəd veriləcək. Qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Nazirlər Kabineti tərəfindən müəyyən ediləcək.

Bu gündən "Avtomobil nəqliyyatı haqqında" qanuna edilən dəyişikliklərə əsasən ölkə ərazisində taksi minik avtomobilləri ilə sərnişin daşımalarına dair yeni tələblər də qüvvəyə minir. Yeni tələblərdə taksi sifarişi xidməti və taksometr anlayışları, eləcə də taksi sifarişi operatorları və onun vəzifələri geniş şərh edilir. Qeyd olunur ki, taksi sifarişi operatorları hər bir taksi sifarişi üzrə siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən adsızlaşdırılmış məlumatların, o cümlədən sürücünün iş və istirahət rejimlərinə riayət olunmasına nəzarət məqsədilə sürücü barədə məlumatların Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin informasiya sisteminə real vaxt rejimində ötürülməsini təmin etməlidirlər.

Taksi sifarişi operatoru tərəfindən taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi və müvafiq buraxılış kartı olmayan daşıyıcıya və ya sürücüyə taksi sifarişi xidmətinin göstərilməsi qadağan ediləcək.Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqələri, o cümlədən taksi sifarişi operatorunun fəaliyyətinə icazə 7 il müddətinə veriləcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunun tətbiqi ilə bağlı imzaladığı 18 avqust 2023-cü il tarixli fərmana əsasən, taksi xidmətləri göstərən avtomobillərlə sərnişin daşımalarına dair yeni tələblərin pozulmasına görə cərimələr 2024-cü il yanvarın 1-dən qüvvəyə minəcək.

Yeni ayın ilk günündən etibarən ölkəmizdə taksi fəaliyyəti üçün yeni dövlət rüsumları tətbiq olunacaq. Bu məsələ "Dövlət rüsumu haqqında" Qanuna edilən dəyişiklikdə əksini tapıb. Xatırladaq ki, indiyə qədər qüvvədə olan qanuna əsasən isə yalnız Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun tutulduğu hallar sırasında yer alıb. Bu gündən qüvvəyə minən qanuna əsasən isə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazənin verilməsi üçün dövlət rüsumunun dərəcələri də müəyyənləşir.

Yeni rüsumların məbləğinə gəldikdə isə taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi 125 manat, bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsi isə 25 manat müəyyən edilib. Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi 250 manata, hər bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsi 75 manata, taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsi isə 3 min manata başa gələcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi

**Ərşad HÜSEYNOV,**
**nəqliyyat üzrə ekspert**



Ötən əsrin 90-cı illərindən etibarən Azərbaycanda taksi fəaliyyəti sahəsində xaos hökm sürürdü. Bəzi hallarda hətta nəqliyyat müfəttişləri ilə taksi sürücüləri arasında dava-dalaş, bıçaqlanma ilə nəticələnən xoşagəlməz olayların da şahidi olurduq. Düzdür, ayrı-ayrı illərdə həmin xaotik vəziyyətin aradan qaldırılmasına müəyyən cəhdlər göstərilsə də, çox təəssüf ki, heç biri uğurlu olmadı.

Buna görə də bu sahədə qayda-qanun, nizam-intizam yaratmağa böyük ehtiyac var idi. Qanuna edilən dəyişikliklərin oktyabrın 1-dən qüvvəyə minməsi də bu sahədə növbəti bir cəhddir. Dəyişikliklərin əsas hədəfi taksi fəaliyyəti sahəsində nizam-intizam, xüsusən də nəzarət yaratmaqdır. Nəzarət yaratmaq isə aqreqatorlar vasitəsilə xüsusi portallar üzərindən həyata keçiriləcək. Yeri gəlmişkən, ilk dəfə olaraq qanunvericilikdə həmin aqreqatorların ümumi statusu, onların səlahiyyətləri, fəaliyyət istiqamətləri və fəaliyyətinin şərtləri müəyyən olunub.

Qanunvericilikdə taksi sifarişi operatoru anlayışından istifadə olunur, onların vəzifələri, necə icazə almaları izah edilir. Yəni, opretorların icazə almaları üçün xüsusi proqramları olmalıdır. Həmin proqram isə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə inteqrasiya olunmalıdır. Yəni, agentlik görməlidir ki, onlar hansı sürücünü xidmətə qoşur, həmin şəxs neçə saat işləyir? Və yaxud sürücü taksi fəaliyyəti göstərmək üçün nəzərdə tutulmuş tələblərə uyğundurmu, sənədləri qaydasındadırmı və yaxud avtomobili hansı vəziyyətdədir?

Qanunvericilkdə taksi fəaliyyəti ilə bağlı əvvəlki tələblər bir az da konkretləşdirilib. Məsələn, sürücülərin xüsusi təlim keçmələri ilə yanaşı, onlardan sağlamlıq arayışları tələb olunacaq. Eyni zamanda, sürücü "E" kateqoriyası üzrə, ən azı, ilkin təcrübəyə malik olmalı, yaşı isə 20-dən az olmamalıdır. Həmin tələblərə cavab verən hər kəs taksi fəaliyyəti göstərmək üçün iddialı ola bilər. Həmçinin taksi fəaliyyətinə cəlb edilmiş avtomobil də tələblərə uyğun olmalıdır. Bu sahədə bir sıra məsuliyyət tədbirləri nəzərdə tutulur ki, onların da tətbiqinə yanvarın 1-dən başlanılacaq.

Yeri gəlmişkən, əsas məsələlərdən biri də taksi fəaliyyəti üçün icazə alınmasıdır. Belə ki, indiyədək, sadəcə, fərqlənmə nişanı almaq tələb olunurdusa, oktyabrın 1-dən taksi fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi şəxslərin buraxılış vərəqəsi almaları məcburi olacaq. Buraxılış vərəqəsi aldındıqdan sonra hər bir avtomobil üçün ayrıca buraxılış kartı veriləcək.

Taksi sifarişi operatorları da icazə almalıdırlar. Onlar üçün müvafiq rüsumlar da müəyyən edilib. İcazəsiz fəaliyyət göstərənlər üçün isə məsuliyyət nəzərdə tutulur. Bu da kifayət qədər sərt, cərimələrin məbləği olduqca yüksəkdir. Belə ki, taksi sifarişi operatoru fiziki şəxs olarsa, ilkin cəriməsi 10 min manat nəzərdə tutulub. Hüquqi şəxslər üçün isə cərimənin məbləği üç dəfə artıqdır. Sürücülər üçün cəza tədbirləri yumşaqdır. Məsələn sürücü icazə almadan taksi fəaliyyəti ilə məşğul olduğu təqdirdə 50 manat məbləğində cərimə olunacaq.

Yeri gəlmişkən, yeni tələblər oktyabrın 1-dən qüvvəyə minsə də, cərimələr gələn il yanvarın 1-dən tətbiq olunacaq. Bu isə o deməkdir ki, qarşıdakı 3 ay ərzində bu fəaliyyətlə məşğul olmaq istəyən operatorlar və sürücülər öz fəaliyyətlərini qanunvericiliyə uyğunlaşdırmalıdırlar. Buna əməl etməyənlər isə fəaliyyətləri qanunsuz sayılmaqla yanvarın 1-dən cərimələrlə üzləşəcəklər.

# Bakı Limanı üçüncü dəfə "Eco Ports" sertifikatına layiq görülüb

## *Logistik mərkəz ekoloji standartlara yüksək səviyyədə əməl edir*

**Regionda ilk dəfə olaraq hələ 2019-cu ildə "Eco Ports" sertifikatına layiq görülən Bakı Limanı resertifikasiya mərhələsindən növbəti dəfə uğurla keçib.**



Limandan verilən məlumata görə, Avropa Dəniz Limanları Təşkilatının (European Sea Ports Organization – ESPO ) Liman Ətraf Mühitin Təhlili Sistemi (PERS) – "EcoPorts" sertifikatını ardıcıl olaraq üçüncü dəfə Bakı Limanına təqdim edib.

Qeyd edək ki, Bakı Limanı Ətraf Mühitin Təhlili Sistemi (Port Environment Review System – PERS) – ətraf mühitin mühafizəsi ilə bağlı məlumatlılığı artıran və limanların dayanıqlı inkişaf məqsədlərinə çatmasına kömək edən Avropanın liman sektoruna aid ətraf mühitin idarə edilməsi standartıdır. Bu standart enerji istifadəsi, tullantıların idarə olunması, havanın keyfiyyəti, rəqəmsallaşma və avtomatlaşdırma aspektlərində qabaqcıl texnologiyaların tətbiqini təşviq edir.

Avropada hazırda bu statusa cəmi 32 liman layiq görülüb ki, bunların içində Roterdam, Barselona və London limanları da var. Avropanın qabaqcıl limanları ilə yanaşı, Bakı Limanının da bu siyahıda yer alması həm region, həm də ölkəmiz üçün uğurdur. Bakı Limanı üçün ekologiyanın qorunması və inkişaf etdirilməsi əsas prioritetlərdəndir və bu istiqamətdə yerli və beynəlxalq təşkilatlarla yanaşı, ekspertlərlə də mütəmadi olaraq iş aparılır.

# Kənddə yeni tipli özəl fəaliyyət genişlənir

## *Bu il 23 aqropark dövlət qeydiyyatına alınıb*

**İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, cari ilin 9 ayında respublikada 21 özəl və 2 dövlət aqroparkı olmaqla, ümumilikdə, 23 aqropark qeydiyyata alınıb və 59 sahibkarlıq subyektinə rezidentlik verilib.**



Agentlik bildirir ki, aqroparkların fəaliyyətində dəyər zəncirinin formalaşdırılması, effektivliliyin artırılması, həmçinin hüquqi çərçivənin müəyyənləşdirilməsi məqsədilə ölkə Prezidentinin 21 dekabr 2021-ci il tarixli fərmanı ilə "Aqroparklar haqqında Nümunəvi Əsasnamə" yə uyğun olaraq həmin təsərrüfatların rəsmi qeydiyyata alınması prosesinə başlanılıb.

Xatırladaq ki, texnologiyalar parkının rezidenti statusu hüququ əldə edən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərdə bu fəaliyyətin məqsədləri üçün çalışan bütün muzdlu işçilərə ödənilən əməkhaqlarından gəlir vergisi və məcburi dövlət sosial sığorta haqları güzəştli dərəcələrlə hesablanıb ödənilir.

***XQ***

# İdxal azalır, ixrac çoxalır

## *Sentyabrda xaricə 200 milyon dollarlıq qeyri-neft məhsulları satılıb*

**Son illər iqtisadiyyatın diversifikasiyası istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların salınması investisiyaların cəlbini və biznes mühütinin kifayət qədər yaxşılaşdırılmasını şərtləndirib.**

Azərbaycanın neft strategiyası iqtisadi artımda əsas rol oynasa da, uğurla həyata keçirilən geniş miqyaslı islahatlar nəticəsində qeydə alınan göstəricilərlə qeyri–neft sektorunun payı neft–qaz sənayesini üstələyib. Belə ki, qeyri–neft–qaz sektoruun ÜDM-dəki payı 2011-ci ildəki 48,8 faizdən cari ildə 66 faizə yüksəlib. Gələn il isə bu göstəricinin 68 faizə yüksələcəyi proqnozlaşdırılıb. Qeyri–neft–qaz sektorunun payının artmasında da istehlakçı fəallığının genişlənməsi və düşməndən təmizlənən torpaqarda yeni layihələrin icrası, habelə infrastruktur investisiyaları əhəmiyyətli rol oynayıb.

Respublikamızın ixrac qabiliyyəti də davamlı şəkildə güclənməkdə davam edib, idxalı əvəzləyən məhsulların istehsalının artırılması reallaşıb. Bu, statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"na əsasən, 2023-cü ilin yanvar-avqust ayları ərzində Azərbaycanın ümumi ixracı 24,4 milyard dollar, qeyri–neft sektoru üzrə ixrac isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 14,6 faiz artaraq 2,2 milyard dollar təşkil edib. Bu ilin yanvar-avqust ayları ərzində yeyinti məhsulları üzrə ixrac isə 571,4 milyon dollara bərabər olub.

Cari ilin 8 ayı ərzində elektrik enerjisi 3,9 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 3,8 dəfə, qara metal məmulatlarının ixracı 36,6 faiz, şəkər ixracı 17,9 faiz, meyvə-tərəvəz ixracı isə 7,4 faiz artıb.

İİTKM-nin məlumatına əsasən, 2023-cü ilin yanvar-avqust ayları ərzində aqrar və aqrar–sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,4 faiz artaraq 594 milyon dollar təşkil edib. Qeyri–neft–qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar–sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 32,8 faiz artaraq 132,6 milyon dollar təşkil edib.

İxrac əməliyyatlatında diqqətçəkən bu uğurlu göstəriciləri bir sıra amillər şərtləndirir: respublikamızda prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti aparılır, makroiqtisadi və büdcə dayanıqlığının reallaşdırılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsinə xüsusi əhəmiyyət verilir. Məhz bütün bunların nəticəsidir ki, hazırda qeyri–neft–qaz sənayesində artım neft–qaz sektorundakı artımı üstələyir. Mövcud sahədə əlavə dəyərin 6,5 faiz artması, ümumi halda isə qeyri–neft sektorunda 3 faizdən çox artım müşahidə olunması, həmçinin 2003-cü ildən başlayaraq, ötən zaman ərzində reallaşdırılan strategiya sayəsində milli iqtisadiyyatın real xərcinin 4 dəfə, ixracın 15,6 dəfə yüksəlməsi, iqtisadiyyatın orta artım tempinin dünya üzrə orta səviyyədən 4 faiz çox olması bunun parlaq ifadəsidir.

Azərbaycanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun getdikcə güclənməsi isə, öz növbəsində, xarici ticarət dövriyyəsinin genişlənməsinə təkan verib. Məhz bunun nəticəsidir ki, ölkəmizin xarici ticarət əlaqələrinin coğrafiyası ildən–ilə genişlənib. Belə ki, cari ilin yanvar–iyul aylarında Azərbaycan Respublikası dünyanın 190 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları aparıb. Hesabat dövründə Azərbaycan istehsalı olan məhsullar planetin 111 ölkəsinə ixrac olunub. Bununla yanaşı, ilin 7 ayında 181 ölkə ilə idxal əməliyyatları həyata keçirilib.



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, gömrük orqanlarında qeydiyyatı aparılan, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmayan ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilən dəyəri nəzərə alınmaqla cari ilin yanvar–iyul aylarında ölkəmizin xarici ticarət dövriyyəsi 26 milyard 333 milyon dollar təşkil edib. Ümumi ticarət dövriyyəsinin 16 milyard 777 milyon dolları ixracın, 9 milyard 556 milyon dolları isə idxalın payına düşüb.

Xarici ticarət əməliyyatlarında ixracın həcminin xeyli artması nəticəsində ilin 7 ayı ərzində əmtəə dövriyyəsində 7 milyard 220,2 milyon dollarlıq müsbət saldo yaranıb. Göründüyü kimi, ötən ilin yanvar–iyul ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 14,2 faiz azalsa da, real ifadədə 1,4 faiz artıb. O cümlədən idxal real ifadədə 8 faiz artıb, ixrac isə 0,7 faiz azalıb.

İİTKM-nin məlumatına görə, cari ilin 8 aylnda Rusiya Federasiyasına 721,5 milyon dollar, Türkiyəyə 586,6 milyon dollar, Gürcüstana 219,1 milyon dollar, İsveçrə Konfederasiyasına 86,4 milyon dollar, Qazaxıstana isə 72,4 milyon dollar dəyərində qeyri–neft sektoruna aid mal ixrac olunub. Bu ilin avqust ayının qeyri–neft ixracı 200 milyon dolları keçib. Bunun da 51,4 milyon dollarını (10,3 faiz artım) yeyinti məhsulları üzrə ixrac, 152,2 milyon dollarını isə qeyri–yeyinti məhsulları üzrə ixrac təşkil edib.

2023-cü ilin avqust ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (79,6 milyon dollar) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (31,4 milyon dollar) ikinci və Gürcüstan (20,4 milyon dolları) üçüncü olub. Avqust ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında şaftalı (17,4 milyon dollar) birinci, ilkin formalı polipropilen (10,8 milyon dollar) ikinci və polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (9,6 milyon dollar) üçüncü olub.

"İxrac icmalı"nda göstərilib ki, 2023-cü ilin sentyabr ayında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri–neft ixracının dəyəri 31,6 milyon dollar olub. İİTKM-nin məlumatına əsasən, hesabat dövründə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 45 ölkəsinə 12,7 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. Bu ilin avqust ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,5 milyon dollar dəyərində xidmət ixrac edib.

8 ayda peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 3,6 milyon dollarla Birləşmiş Krallıq, 2,7 milyon dollarla Lüksemburq, 1,1 milyon dollarla BƏƏ, 713,2 min dollarla Almaniya və 539,9 min dollarla Nigeriya qərarlaşıb.

Bütün bu müsbət göstəricilər hazırda ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşmasını deməyə əsas verir. Bu, yeni istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı"nın səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Şərqi Zəngəzur: “Ağıllı” şəhər və kəndlərdən “Dost aqropark”lara

## Həm də geniş “yaşıl enerji” zonasına keçid

(əvvəli 1-ci səhifədə)

2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun keçirildiyi Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanda da müharibədən sonra sadalanan istiqamətlərdə bərpa–quruculuq layihələri sürətlə icra olunub. Bu yaşayış sahəsi azad olunan ərazilərin ilk bölgəsidir ki, artıq burada məskunlaşmanın birinci mərhələsi həyata keçirilib.



Ağalı “ağıllı kəndi”ndə ötən bahar aylarından etibarən həyat canlanıb. Artıq Zəngilanda beynəlxalq tədbirlərin keçirilməsinə başlanılıb.

Yeni istifadəyə verilən Konqres Mərkəzi, eyni zamanda, infrastruktur obyektlərinin, yaşayış binalarının tikintisi isə deməyə əsas verir ki, şəhər qarşıdakı, təxminən, iki il ərzində ilk sakinlərini də qarşılayacaq.

Zəngilan mühüm strateji coğrafiyada yerləşir, rayona böyük əhəmiyyətə malik nəqliyyat qovşağı kimi yanaşılır. Çünki bu yaşayış sahəsi nəqliyyat dəhlizləri üzərində yerləşir və düşməndən təmizlənən torpaqlarda inşa edilən ikinci hava limanı da bu ərazidə yerləşir. Hava limanı hazırda bölgənin inkişafı baxımından mühüm rol oynayır. İşğal dövründə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan Horadiz–Zəngilan dəmir yolunun inşası da hazırda son mərhələdədir və tezliklə Zəngəzur Dəhlizinin mühüm hissəsi olaraq istifadəyə veriləcək.

Prezident İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında Horadiz–Zəngilan dəmir yolunun əhəmiyyətindən danışaraq deyib: “Bu, Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək layihədir. Oradan isə həmin dəmir yolu İran və Türkiyəyə keçəcək və nəhayət Avropaya çatacaq. Tezliklə biz bu layihəni istifadəyə verəcəyik. Yəni, Zəngilan çox vacib nəqliyyat mərkəzi olacaq. Dəmir yolu xətləri, hava limanı – bu gün bu istiqamətdə altı və dörd zolaqlı avtomagistrallar inşa edilir. Paytaxt Bakıdan bütün bu istiqamətlərdə 2000 kilometrdən çox yeni magistral yollar inşa olunur. Yəni, bu, irihəcmli tikinti layihələridir və azad olunmuş hər bir rayon xüsusi Baş plana malikdir”.

Düşməndən təmizlənən bütün ərazilərdə olduğu kimi, Zəngilanda da hazırda heyvandarlığın inkişaf etdirilməsi üçün aqroparkların, intensiv fermaların yaradılmasına xüsusi önəm verilir. Bunlar aqrar sektorda uğur əldə edilməsinin zəruri amillərindən biri sayılır və məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə imkan yaradır, eyni zamanda, klaster yanaşmanı önə çıxarır. Belə bir yanaşma isə ölkənin daha çox rəqabət üstünlüyünə malik sahələrinin birlikdə inkişaf etdirilməsini nəzərdə tutur. Bu yolla məşğulluğun təmin olunması, iş yerlərinin yaradılması və məhsulların dünya bazarına çıxarılması gerçəkləşir.

Dövlətimizin başçısı şəhərsalma forumundakı çıxışında vurğuladığı kimi, Zəngilanda təkcə pilot yaşayış deyil, həmçinin pilot kənd təsərrüfatı layihəsi həyata keçirilir. “Dost Aqropark” adlanan bu təşəbbüs iki qardaş ölkə– Azərbaycan və Türkiyə şirkətləri tərəfindən gerçəkləşən birgə müəssisəsidir və həmin aqropark artıq uğurla fəaliyyət göstərir.

Zəngilan rayonunda yaradılan “Dost aqropark” klaster yanaşmanın bariz nümunəsidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Artıq aqroparkda birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb. İnzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, xidməti heyətin yaşayış binaları tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı reallaşdırılıb.

Bu gün “Dost aqropark”ın ikinci və üçüncü mərhələləri üzrə işlər davam etdirilir. Layihənin hər 3 mərhələsinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. İstehsal olunan məhsullar yerli tələbatı ödəməklə yanaşı, “Made in Qarabağ” brendi ilə dünya bazarına çıxarılacaq.

“Dost aqropark” ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq.

Bütün bu qeyd edilənlərə əsasən, rayonun gələcəkdə respublikamızın qida təhlükəsizliyinə önəmli töhfə verəcəyini indidən əminliklə demək olar. Təsərrüfatda 6 min baş anqus cinsindən olan qaramal saxlanılır və onların sayının 10 minə çatdırılacağı nəzərdə tutulur.

Beləliklə, dəmiryolu çəkiləndən və Zəngəzur dəhlizi açılandan sonra bu ərazi logistika baxımından mühüm önəm daşıyacaq. Belə ki, həm xaricdən bura arpa, buğda gətirmək daha rahat olacaq, həm də aqroparkın istehsal etdiyi məhsulları ixrac etmək asanlaşacaq.

2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda Böyük Qayıdış Proqramının mühüm tərkib hissələrindən biri olan məşğulluq, sosial obyektlərin tikintisi məsələsinə də toxunulub.

Bununla bağlı Zəngilanda artıq böyük bir məktəb binasının inşa edildiyi, məscidin inşasının isə yekunlaşdırıldığı diqqətə çatdırılıb. Yeri gəlmişkən, bu ibadət ocağı ermənilər tərəfindən məhv edilən qədim məscidin yanında inşa edilib. Ümumiyyətlə, işğal altında olan bütün torpaqlarımızdakı 67 məsciddən 65-i sıradan çıxarılıb, 2-si isə yarı dağıdılmış vəziyyətdə olub.

İşğaldan azad edilən ərazilərdə məskunlaşmanın ən mühüm şərtlərindən biri də enerji infrastrukturun yaradılmasıdır. Vətən müharibəsindən ötən müddətdə bu istiqamətdə geniş miqyaslı layihələr reallaşdırılıb. İndiyədək 90 meqavat həcmində hidroelektrik enerji potensialı hərəkətə gətirilib. Başqa sözlə, bu həcmdə enerji ölkəmizin mərkəzi şəbəkəsinə ötürülüb və düşməndən təmizlənən yaşayış sahələrinə tam inteqrasiya edilib.

Respublikamızın azad olunan ərazilərində hidroelektrik enerjinin həcmi bu ilin sonunadək 170 meqavata, 2024-cü ilin sonuna qədər isə 270 meqavata çatacaq. Bu da təbii ki, Azərbaycanın “yaşıl enerji” gündəliyinə böyük töhfə olacaq. Belə bir proqnozun isə əsası var. Çünki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının 10 min meqavat “yaşıl enerji” potensialı mövcuddur. Bura həm günəş, həm külək, həm də su elektrik stansiyaları aiddir. Əslində, bu, Azərbaycanın enerji potensialının cüzi bir hissəsidir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi potensialını (157 qiqavat) bura əlavə etsək, mövcud vəziyyət haqqında aydın təsəvvür yaranar.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bugünədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard dollar həcmində vəsait sərf edilib. Növbəti il üçün isə planlaşdırılan minimum büdcə 2,4 milyard dollar həcmində nəzərdə tutulub. Deməli, ölkəmiz heç bir maliyyə dəstəyi, heç bir maliyyə yardımı almadan Qarabağ və Şərqi Zəngəzurun bərpasını həyata keçirirb. Düzdür burada iki qardaş ölkə – Özbəkistan və Qazaxıstan istisnadır, biri məktəb, digəri isə incəsənət mərkəzinin inşasını üzərlərinə götürüb və təhsil müəssisəsi artıq məktəblilərin ixtiyarına verilib.

Qeyd edək ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022–2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı”na əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi nəzərdə tutulub. Prezident İlham Əliyev tərəfindən 29 yaşayış məntəqəsinin təməli qoyulub. Ümumilikdə, Vətən savaşından dərhal sonra başlanan bərpa-quruculuq layihələri çərçivəsində dövlətimizin başçısı tərəfindən 105 layihənin təməli qoyulub, 63 müxtəlif təyinatlı tikinti obyektinin açılışı olub. Düşməndən təmizlənən ərazilərdə çoxsaylı sosial infrastruktur yenidən qurulub, iki hava limanı, avtomobil yolları, dəmir yolu, su elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar və digər obyektlər tikilərək istifadəyə verilib. Ötən ilin iyul ayından etibarən ilkin olaraq 2 şəhərə (Laçın və Füzuli) və 3 kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) keçmiş məcburi köçkünlərin qayıdışı reallaşdırılıb.

Azərbaycanın “2022-2026-cı illər Böyük Qayıdış” proqramı çərçivəsində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına 40 mindən çox məcburi köçkünün şəhərlərə və qəsəbələrə köçürülməsi nəzərdə tutulub.



**V.BAYRAMOV**
**XQ**

**Azərbaycan – Türkiyə III Enerji Forumu**

**Naxçıvanda Azərbaycan–Türkiyə III Enerji Forumu keçirilir. Forum “Naxçıvan –Yaşıl Enerji Zonası” mövzusunda beynəlxalq konfrans ilə start götürüb. Naxçıvan Biznes Mərkəzində təşkil edilən məclisin açılışında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, energetika naziri Pərviz Şahbazov, Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqlim dəyişikliyi və ətraf mühit naziri Mariam Mohammed Almheiri çıxış ediblər.**

# “Naxçıvan – Yaşıl Enerji Zonası” dostluq və qardaşlıq layihəsidir

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iki ölkənin qardaşlıq və müttəfiqlik münasibətlərinin regionda sabitlik və enerji təhlükəsizliyinin təminatında əhəmiyyətindən bəhs edərək forum və konfransın Naxçıvanda keçirilməsinin muxtar respublikanın “yaşıl enerji zonası”na çevrilməsi prosesinə töhfə verəcəyini qeyd edib. O, daha sonra “yaşıl enerji” layihələrinin reallaşdırılmasının yaxın illərdə Naxçıvanı enerji ixracatçısına çevirəcəyini və qədim diyarın strateji əhəmiyyətini daha da artıracağını vurğulayıb.




Naxçıvanın bütün dövrlərdə Azərbaycan–Türkiyə münasibətlərinin mərkəzində olduğunu bildirən energetika naziri Pərviz Şahbazov deyib ki, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın yürütdükləri siyasət, onların liderliyi ilə tarixdə bənzəri olmayan iki ölkə birliyinin gücü qardaş–dost münasibətlərimizi müttəfiqlik statusuna yüksəldib.

Bildirilib ki, Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirməyi və onu “yaşıl enerji” zonasına çevirməyi hədəfləyən yeni inkişaf mərhələsi Azərbaycan–Türkiyə enerji əməkdaşlığında yeni səhifədir: “Bu günlərdə illik 500 milyon kubmetr qaz tədarük edəcək İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulması, həmçinin Azərbaycanda və Türkiyədə bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlıq sənədinin imzalanması mərasimində Azərbaycan–Türkiyə prezidentlərinin iştirakı bir daha göstərdi ki, ölkələrimiz yeni strateji kursun birgə həyata keçirilməsində qərarlıdırlar və onların siyasi iradəsi bu prosesdə də həllediciidir”.

Külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun, ən azı, 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığın Naxçıvanı “yaşıl enerji”nin istehsal – ixracı mənbəyi və marşrutuna çevirəcəyi qeyd edilib. Bu xüsusda, “TotalEnergies” və “Nobel Energy” şirkətləri ilə ümumi gücü 650 MVt olan günəş elektrik stansiyalarının inşası və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlıq edildiyi bildirilib. “Masdar” şirkəti ilə ilkin mərhələdə gücü 150 MVt olan günəş elektrik stansiyası, “Czech Engineering” şirkəti ilə günəş elektrik stansiyaları, eləcə də Almaniyanın “Notus” şirkəti ilə “yaşıl enerji” layihələrinin reallaşdırılması ilə bağlı planlar diqqətə çatdırılıb.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar isə çıxışında bildirib: “Türkiyə və Azərbaycan olaraq Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum və TANAP təbii qaz boru kəmərləri kimi regionumuzun və Avropanın enerji təchizatı təhlükəsizliyinə mühüm töhfələr verən böyük infrastruktur layihələrini yeni dövrdə bərpaolunan enerji, elektrik interkonnektor layihələri, mədənçilik kimi müxtəlif sahələrdə də inkişaf etdirmək istəyirik”.

Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit naziri Mariam Mohammed Almheiri çıxışında “Masdar” şirkətinin Azərbaycandakı fəaliyyətinin önəmindən danışıb: “Ölkəmiz qısa zamanda “COP28”də dünya liderlərini, sənaye öncüllərini və iqlim ekspertlərini qəbul edəcək. “Naxçıvan – Yaşıl Enerji Zonası” Beynəlxalq Konfransında aparılan müzakirələr bu ilin sonunda Dubayda keçiriləcək “COP28” müzakirələrinə öz töhfəsini verəcək”.

Forum və konfrans paralel şəkildə işini davam etdirib. Konfrans çərçivəsində “Enerji keçidi sahəsində dövlət siyasəti”, “Enerji keçidinə şirkətlərin baxışı və töhfəsi”, “Naxçıvan ”yaşıl enerji” zonası kimi: potensial imkanlar və layihələr”, “Naxçıvanın yaşıl enerji potensialının Türkiyəyə və Avropa bazarlarına ixracı imkanları”, “Naxçıvanda bərpa olunan enerji mənbələri sahəsində konseptual yanaşmalar və milli kontentin yaradılması imkanları”, “Naxçıvanda yaşıl enerji layihələrinin maliyyələşdirilməsi imkanları” mövzularında plenar sessiyalar keçirilib.

Tədbirlərdə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, Naxçıvan Muxtar Respublikasının Baş nazirinin müavini Bəxtiyar Məmmədov, SOCAR-ın prezidenti Rövşən Nəcəf, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin idarə heyətinin sədri Samir Axundov, “Azərenerji” ASC-nin vitse-prezidenti vəzifəsini icra edən Vüqar Şahmuradov, Naxçıvan MR-in Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev, eləcə də BOTAŞ, TPAO, TEİAŞ, “ACWA Power”, “TotalEnergies”, “bp”, “Masdar”, “China Gezhouba Group Overseas Investment”, “Nobel Energy”, Türkiyə Külək Enerjisi Birliyi, MTA, EPİAŞ, TÜREB, GÜNDER, TEPSCO, Türkiyə Enerji Ticarəti Dərnəyi, “McKinsey & Company”, DTİK, Beynəlxalq Maliyyə Korporasiyası, İslam İnkişaf Bankının İslam Korporasiyası, Dünya Bankı, Asiya İnkişaf Bankının səlahiyyətli nümayəndələrinin çıxışları dinlənilib.

Yekunda “Azərbaycan–Türkiyə III Enerji Forumunun Protokolu”, həmçinin “Naxçıvan üzərindən “Türkiyə–Azərbaycan Qarşılıqlı Əlaqə” layihəsinin icrası ilə əlaqədar 2023–2025-ci illərdə “TEİAŞ” və “Azərenerji” ASC-nin birgə həyata keçirəcəyi Yol Xəritəsi”, “Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və “A-Z Czech Engineering” MMC arasında Azərbaycan Respublikası ərazisində bərpa olunan enerji mənbələri üzrə layihələrin icrası, həmçinin Naxçıvan Muxtar Respublikasında gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanlarının araşdırılması üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və “ACWA Power” şirkəti arasında Batareya Enerji Saxlama Sistemi (BESS) layihəsi və 200 MVt quruda külək layihəsi üçün tədbirlər təqvimi (Yol xəritəsi)” imzalanıb.

***Səbuhi HƏSƏNOV***
***XQ-nin bölgə müxbiri***

**Naxçıvan**

Xalq TV-nin müsahibi

# Qərbi Azərbaycana qayıtmaq soydaşlarımızın əzəli hüququdur

**Azərbaycan xalqı 2020-ci ilin Vətən müharibəsində öz gücü ilə ərazi bütövlüyünü bərpa edib. Bugünlərdə Qarabağda gerçəkləşdirilən lokal antiterror tədbirləri ilə Xankəndidə daldalanmış xuntanın da qanunsuz varlığına son qoyuldu. Cinayətkar rejimin əliqanlı quldurları yuvasına su dolan siçovullar sayağı qaçıb canlarını qurtarmağa gizli yol axtarırlar. Belə bir vaxtda Qərbi Azərbaycandan 35 il əvvəl qovulmuş soydaşlarımız doğma yerlərə qayıtmaq ümidilə səfərbər olunurlar.**



**Tarixi ədalətin öz yerinə qayratıldığı bir dönəmdə Xalq TV-də növbəti qonağımız Milli Məclisin Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri, dünya şöhrətli onkoloq, akademik Əhliman Əmiraslanovdur.**

***– Əhliman müəllim, Qarabağda qazandığımız tarixi qələbələr – ərazi bütövlüyümüzün bərpası və suverenliyimizin təmin edilməsi yurd həsrətli Qərbi azərbaycanlıların tarixi torpaqlarımıza qayıtmaq arzularını gerçək bir müstəviyə çıxarıb. Qərbi Azərbaycan İcmasının çoxşaxəli fəaliyyəti bugünlərdə böyük ümidlər doğurur.***

– Tarix və bugünün üz-üzə durduğu bir dövrün şahidləriyik. Tarixi zəfərimizin əks-sədası bütün dünyanı silkələdi: dost sevindi, düşmən zəlil və xəcil oldu. Siyasət alverçiləri nə qədər məkrli planlar hazırlasalar da uğurlu, xalqın dili ilə desək, tədbirli dövlət diplomatiyamız ədalətsizliklərə üstün gəldi. Xalq – Lider – Ordu birliyi "Dəmir yumruq" kimi düşmənin başına enib, onu diz çökdürdü. Məhz belə bir tarixi dönəmdə Qərbi Azərbaycan İcması çoxillik arzudan gerçək mübarizə formatına çevrildi. Bu qurumun yaradılması tarixi zərurət oldu. Ölkənin sayılıb-seçilən ziyalıları – Qərbi Azərbaycan əsilli görkəmli şəxsiyyətlər "Böyük Qayıdış" konsepsiyasının ətrafında sıx birləşdilər.

***– Siz dünyaca məşhur onkoloq, fəal ictimai xadim kimi Qərbi Azərbaycan torpağının – Ulu Göyçənin yetirməsisiniz. O yerləri necə xatırlayırsınız? İnsanın doğulduğu torpaqlara həsrət qalmasına sivil dünya necə göz yuma bilər? Bu ədalətsizlik nə vaxtadək davam edə bilər?***

– Mən Qərbi Azərbaycanın Gəyçə mahalının Zod kəndində doğulmuşam. Orta məktəbi də orada bitirmişəm. Yəni, 17 yaşıma qədər doğma kəndimdə, qədim Göyçə elində yaşamışam. Mənim atam təkcə Göyçə mahalında, Qərbi Azərbaycanda yox, Azərbaycanda da tanınan insanı olub – uzun illər Göyçənin Basarkeçər rayonuna rəhbərlik edib. Atam ömrünün son illərində isə həmin rayonun təhsil şöbəsinin müdiri işləyib, soydaşlarımızın yaxşı təhsil almasına çalışıb. Əməkdar müəllim idi, bir çox təltifi, mükafatı var idi.

O dövrdə Göyçə mahalının, xüsusilə, Basarkeçər rayonunun kəndlərinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət idi. Düzdür, qarışıq kəndlər də var idi. Ancaq kəndlərin çoxunda azərbaycanlılar məskunlaşmışdı. Mənim doğulduğum Zod da təmiz azərbaycanlı kəndi idi. Obada 750 ailə yaşayırdı. İndi o dövr – uşaqlıq, orta məktəb illərim kino lenti kimi gözümün qarşısından keçir. Ən xoş xatirələrim o yerlə, o torpaqla, orada yaşamış insanlarla və doğma yurdumuzla bağlıdır. Bu gün də kəndimiz, evimiz yuxuma girir.

Bir neçə il bundan qabaq Azərbaycandan Ermənistana gedənlərdən xahiş etdim ki, gedib görsünlər bizim evimiz yerindədirmi. Çox sağ olsun, onlardan biri getdi kəndə, telefon vasitəsilə bizim evimizi, həyətimizi göstərdi. Ancaq tanımaq çətin idi... Hasarlar uçmuş, divarlar dağılmışdı. Evimizin qarşısında şox böyük, gözəl bir bağımız var idi, oradakı ağaclar kəsilmişdi. Ev demək olar ki, çox bərbad bir vəziyyətdə idi, yalnız pəncərələrindən tanıdım... Orada yaşlı bir ailə yaşayırmış. Deyiblər ki, buranın sahibi gəlsəydi, çıxıb gedərdik. Bununla demək istəyiblər ki, onları bura zorla gətiriblər, talenin ümidinə buraxıblar.

Çox təəssüf ki, dostlarım evimizə gedə bilsələr də, onları kəndin məzarlığına qəti şəkildə buraxılmayıblar. Hətta, onlar mənə dedilər ki, dəfələrlə təkid etməklərinə baxmayaraq, məzarlıqlara buraxılmayıblar. Bu, onu göstərir ki, erməni vandalizmi məzarlıqda da cinayət törədib.

Qarabağ hadisələri başlayanda mən Moskvada idim, qardaşım Zodda yaşayırdı. Göyçə mahalından ən axırıncı çıxan ortancıl qardaşım olub. Mənim bibilərim, yaxın qohumlarım da orada yaşayırdı. Moskvada yaşasam da, yaxınlarımla tez-tez əlaqə saxlayırdım. Çox şətinliklə qardaşımı, bibilərimi Kəlbəcər yolu ilə çıxara bildik. Bakıdan maşın göndərdim, qardaşımın ailəsini, bibilərini, doğma torpaqlarımızdan – Zoddan çıxarmalı oldum. Onu da deyim ki, həmin hadisədən 3-4 gün sonra kəndimizə bərk qar yağdı və yollar bağlandı. Bibilərim bu dəhşətli qaçqınlıq əzabına, aran yerinin ab-havasına dözə bilmədilər.

Göyçə mahalının yerli əhalisi azərbaycanlılar idi. Onlar çox qorxmaz, cəsur insanlar idi. Bu gün nə qədər acı olsa da, ürək ağrısı ilə deyirəm ki, göyçəlilərə dövlət səviyyəsində sahib çıxılsaydı, onlar doğma torpaqlarından didərgin düşməzdilər. Yerli camaat silahsız idi. Ermənilər azərbaycanlılardan qorxurdular, çəkinirdilər. Amma ermənilər azərbaycanlıların silahsız olmaqlarından istifadə edib, bir-bir bütün kəndləri boşaltdılar. Ermənilər asanlıqla tarixi torpaqlarımızı işğal etdilər. Sağ qalanlar Vətən həsrəti ilə yaşayırlar.

***– Qərbi Azərbaycan İcması qaçqın soydaşlarımızda Vətənə qayıtmaqla bağlı böyük ümidlər yaradıb.***

– Bu gün təkcə mənim yox, Qərbi Azərbaycandakı yurd yerlərimizdən olan insanların ən müqəddəs arzusu odur ki, ata-baba torpağımıza qayıdaq. Qərbi Azərbaycan İcmasının bütün fəaliyyəti bu istiqamətə yönəldilib. Möhtərəm Prezidentimiz İlham Əliyevin bilavasitə diqqəti, dəstəyi ilə bu qurumun yaranması Qərbi azərbaycanlıların öz ana vətənlərinə qayıdışının bünövrəsini qoydu. Və bu istiqamətdə çox ciddi işlər aparılır. Mən əminəm ki, biz Qərbi Azərbaycana – Göyçəyə, Zəngəzura, İrəvana, Dərələyəzə, Dağ Borçalıya, Vediyə, Amasiyaya qayıdacağıq.

Ancaq fikirləşirik ki, bizim bu qayıdışımız müharibə yolu ilə yox, sülh danışıqları ilə başa çatsın. "Dəmir yumruq" işə salınmadan yurdumuza dönək. Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı azad etdi. Otuz ilə yaxın didərginlik həyatı yaşamaq məcburiyyətində qalan insanlarımız yurd yerlərinə qayıdırlar. Bu zəfərdən ruhlanaraq, mən də inanıram ki, Prezidentimizin dəmir iradəsi sayəsində biz Qərbi Azərbaycanlılar da doğma torpaqlarımıza qayıdacağıq.

Mən bilirəm ki, bütün göyçəlilər, Qərbi azərbaycanlılar bu ağrı ilə yaşayırlar. Hamımızın içində həsrət yanğısı var. Mən övladlarıma, nəvələrimə demişəm ki, əgər mən qayıda bilməsəm, siz, yəqin, vaxt olacaq ki, ora qayıdacaqsınız, gedib ata yurdumu, evimizi yenidən tikin, ocağımıza sahib çıxın. Ümidliyəm ki, mən də o günü görəcəyəm.

***– Əhliman müəllim, Qərbi Azərbaycan İcmasında sizə məsul bir vəzifə tapşırılıb. İşləriniz necə gedir?***

– Qərbi Azərbaycan icmasının təsis olunmasından bir ildən artıq vaxt keçib. Bu müddət ərzində orada böyük işlər görülüb. Açığını deyim ki, icmada bu vəzifə ilk dəfə mənə təklif olunanda, böyük məmnuniyyətlə razılaşdım. Qərbi Azərbaycandan olan elm, təhsil, mədəniyyət sahəsində çalışan çoxlu ziyalılar, ağsaqqallar var. Onlar – Vətən həsrətli həmyerlilərim çox böyük coşqu ilə icmada işləyirlər. Belə bir quruma – Ağsaqqallar Şurasına rəhbərlik etmək həm böyük məsuliyyətdir, həm də şərəfli işdir.

Möhtərəm Prezidentimiz ötən il 24 dekabrda Qərbi Azərbaycan İcmasının inzibati binasına gəldi və ziyalılarla görüşdü. Həmin görüşdə iştirak edirdim, mənə də söz verildi, bir Qərbi Azərbaycanlı kimi öz fikirlərimi dedim. Dövlət başçısı bizim icmada proqram xarakterli, geniş bir nitq söylədi, Qərbi Azərbaycan İcmasının gələcək fəaliyyət proqramını, konsepsiyasını verdi. Göstərdi ki, biz hansı istiqamətdə işimizi davam etdirməliyik – həm ölkə daxilində, həm də xaricdə. Əsas məqsədimiz, təkrar edirəm, Ağsaqqallar Şurasının da qarşısına qoyduğu başlıca məram dədə-baba torpaqlarımıza, öz ocağımıza, doğma yurdumuza qayıtmaqdır. Qərbi Azərbaycana qayıtmaq soydaşlarımızın əzəli hüququdur.

***– Arzu edirik ki, Vətən həsrəti çəkən insanlar tezliklə və dincliklə yurd yerlərinə, doğma ocaqlarına qovuşsunlar.***

*Söhbəti apardı:*
*Kəmalə ABDİNOVA*

**1920-ci il noyabr ayının 29-da Qərbi Azərbaycanda (indiki Ermənistan) sovet hakimiyyəti qurulduqdan sonra burada da ictimai-mədəni mühit kommunist ideologiyasının təsiri ilə yeni forma və məzmun almağa başladı. Hakimiyyət başına kommunist-beynəlmiləlçi cildinə girmiş daşnaklardan daha məkrli, daha siyasətbaz adamlar gəldi.**

# "Rəncbər" – İrəvanda çıxan anadilli qəzet

1921-ci il yanvar ayının əvvəlində İrəvanda Azərbaycan dilində Ermənistan İnqilab Komitəsinin orqanı olan ilk bolşevik mətbuatı – "Kommunist" qəzeti nəşr olunmağa başladı. Bir aya yaxın ömür sürən qəzetin cəmi 3 nömrəsi çıxmışdı. 1921-ci il fevral ayının ortalarında ermənilər "Kommunist" qəzetinin redaksiyasını yandıraraq məhv etmişdilər.

Bütün mənbələrdə "Rəncbər" qəzetinin 1922-ci ildə nəşr edildiyi göstərilir və bu məlumatlar onun nəşri tarixi ilə bağlı həqiqəti əks etdirmir. Qəzetin ilk nömrəsi 1921-ci il 22 iyul tarixində çap olunmuşdu. Ermənistan Kommunist firqəsi mərkəzi və İrəvan komitələrinin nəşr əfkarı olan "Rəncbər" qəzeti ilk vaxtlar bir sıra problemlər və kağız qıtlığı ilə əlaqədar olaraq kiçik həcmdə – 2 səhifədən ibarət ərəb əlifbası ilə nəşr olunmuşdur. Həftəlik çıxan "Rəncbər" qəzeti 1922-ci il 30 sentyabr 47-ci nömrəsinə kimi 2 səhifədən ibarət 500 tirajla çıxmışdır. 8 oktyabr 1922-ci il tarixli 48-ci nömrəsindən etibarən 4 səhifədən ibarət çap olunmuşdur.



1921-ci il iyul ayının əvvəlində azərbaycanlı ziyalıların, xüsusən də Azərbaycandan İrəvana Xalq Daxili İşlər Komissarının müavini vəzifəsinə göndərilən, Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Ermənistan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət heyətinin üzvü, xalqımızın böyük oğlu Bala Əfəndiyevin, Ermənistan Xalq Maarif Komissarlığının nəzdində fəaliyyət göstərən "Xırda millətlər şurası"nın sədri Cahangir Ələkbərbəyovun təşəbbüsü və fədakarlığı ilə EK (b) P MK tərəfindən "Rəncbər" adlı yeni bir qəzetin nəşrinə icazə verilmişdir.

1921-ci il iyul ayının 22-də "Rəncbər" qəzetinin ilk nömrəsi işıq üzü görmüşdür. Qəzetin nəşri Qərbi Azərbaycanda soydaşlarımız arasında geniş əks-sədaya səbəb olmuşdur. "Rəncbər" qəzetinin ilk sayında onun əsas vəzifələri, bu vəzifələrin yerinə yetirilməsi, partiya, sovet, komsomol təşkilatlarının, bütün zəhmətkeşlərin və ziyalıların qəzetə yaxından kömək göstərmələri, rəhbər işçilərin, fəhlə və kəndlilərin rəy və arzuları, bölgələrdən qısa məlumatlar, respublika xəbərləri və bir neçə xarici xəbərlər dərc olunmuşdu.

Qəzetin Azərbaycandakı arxivlərdə nümunə üçün heç bir nüsxəsi qorunub saxlanmamışdır. Moskvadakı Mərkəzi kitabxanada bütün nömrələri olmasa da, 1-3, 46-55 və 78-ci nömrələri dövrü mətbuat fondunda mühafizə olunur. "Rəncbər" qəzetinin əldə etdiyimiz həmin nömrələri bu mətbu orqanla bağlı elmi dövriyyəyə daxil edilmiş bir sıra yanlış məlumatların dəqiqləşdirilməsinə aydınlıq gətirmiş oldu.

Qəzetin yalnız iki – 8 oktyabr 1922-ci il tarixli 48-ci və 15 oktyabr 1922-ci il tarixli 49-cu nömrələri 600 tirajla nəşr edilmişdir. "Rəncbər" qəzeti 8 oktyabr 1922-ci il 48-ci nömrəsinə kimi "Heyyəti-təhririyyə" (Redaksiya heyəti) imzası ilə çıxıb. 15 oktyabr 1922-ci il tarixdən – 49-cu nömrəsindən etibarən qəzetin ilk rəsmi redaktoru vəzifəsinə Bala Əfəndiyev təyin edilmişdir. Bu iş ona ictimai vəzifə kimi tapşırılmışdı.

Bala Əfəndiyev İrəvanda teatrın, türkdilli mətbuatın, azərbaycanlıların savadlanması və yeni türk əlifbasının həyata keçirilməsi işində də tükənməz bir enerji ilə çalışmışdır.

"Rəncbər" qəzeti onun redaktoru Bala Əfəndiyevin və əməkdaşları Məmmədəli Nasirin, Mustafa Hüseynovun, Mehdi Kazımovun, Cahangir Ələkbərbəyovun böyük əzmkarlığı və səyi ilə araya-ərsəyə gəlirdi. Redaksiyada cəmi 5 nəfər – redaktor, makinaçı, mətbəədə isə üç nəfər – iki mürəttib və bir çapçı işləyirdi. Qəzetin ümumi tirajı 500 nüsxə olduğundan geniş oxucu kütləsini əhatə edə bilmirdi. Bütün bunlara baxmayaraq, qəzet ziyalılar tərəfindən izlənilir, onun hər yeni nömrəsi əldən-ələ gəzir, sevilə-sevilə oxunurdu.

1922-ci ildən başlayaraq, Azərbaycanda yeni əlifbaya keçmək haqqında geniş hərəkat başlanmışdı. "Rəncbər" qəzeti müxtəlif nömrələrində əhali arasında savadsızlığı ləğv etmək və milli-mədəni tərəqqiyə nail olmaq üçün həyata keçirilən mühüm məsələlərdən olan əlifba islahatı ilə bağlı bir neçə məqalə dərc etmişdir.

Qəzet İrəvanda Azərbaycan incəsənətinin inkişafı məsələlərinə də böyük qayğı ilə yanaşırdı.

Ümumiyyətlə, "Rəncbər" qəzeti haqqında çox az məlumat mövcuddur. İlk dəfədir ki, bu mətbu orqan haqqında bizim tərəfimizdən aparılan araşdırmalar nəticəsində müəyyən məlumatlar verilmişdir. 1921-ci il iyul ayının 22-dən 1922-ci il dekabr ayının 31-nə kimi qəzetin 59 nömrəsi nəşr olunmuşdur. Cəmi 78 nömrəsi işıq üzü görən "Rəncbər" qəzeti davamlı nəşr olana bilməmiş, 1923-cü ilin may ayından fəaliyyəti dayandırılmışdı. Bütün bunlara baxmayaraq, "Rəncbər" qəzetinin də mətbuat tariximizdə özünəməxsus rolu və yeri olmuşdur.

***Cəlal ALLAHVERDİYEV,***
***filologiya üzrə***
***fəlsəfə doktoru,***
***dosent***

# Ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq səyləri

***(Əvvəli XQ-nin 13 sentyabr 2023-cü il tarixli sayında)***

Qərbi Azərbaycan ərazisində ermənilərin orta əsrlərdən başlayaraq, məskunlaşması, Qərb dövlətlərinin, eləcə də çar Rusiyasının köməyi ilə burada özlərinə dövlət yaratmaq səyləri barədə tarixi həqiqət bu toplumun Qafqazda, guya, aborigen xalq olması barədə cəfəng və uydurmaları birmənalı olaraq təkzib və ifşa edir.

**Ermənişünas tarixçi, fəlsəfə doktoru, Dövlət mükafatçısı Nazim Mustafanın həmkarları ilə birgə və ayrılıqda apardığı araşdırmalar bu baxımdan tutarlı faktların zənginliyi və elmiliyi ilə seçilir. Alim qəzetimizə açıqlamasının davamında bildirdi:**

– İsrael Ori saraya öz proqramını – Erməni dövləti yaratmaq üçün İrana 25 minlik qoşun göndərməyi təklif etmişdi. Bundan sonra sarayda Cənubi Qafqaza yürüş üçün hazırlıq işləri görülməyə başlanmışdı. Ciddi hazırlıqdan sonra 1707-ci ildə Ori polkovnik rütbəsində 50 nəfərlik nümayəndə heyətinin başçısı kimi İrana yola düşür. Ona orada vəziyyəti öyrənmək, xristian əhalisi arasında təbliğat aparmaq, müdafiə qalaları, ölkənin yolları haqqında məlumat toplamaq tapşırılmışdı. Şübhə oyatmamaq üçün İsrael Orini Şah Hüseynə Roma papasının nümayəndəsi kimi təqdim etmək qərara alınmışdı.



1709-cu ildə o, İsfahana gəlir. 1711-ci ildə Həştərxana qayıdır və orada ölür. Sonralar Minas Vartapedlə birlikdə Yesai katolikos İsrael Orinin işini davam etdirmişdilər. Rusiya – İran müharibəsi nəticəsində 1723-cü il sentyabrın 12-də bağlanan müqaviləyə əsasən, Gilan, Mazandaran, Astarabad əyalətləri, Bakı və Dərbənd şəhərləri Rusiyanın tabeliyinə keçir. Noyabrın 10-da I Pyotr həmin ərazilərdə ermənilərin köçürülüb gətirilməsi üçün yer ayrılması haqqında fərman verir.

Həmin fərmanla çar "xristianlıq namine" erməni xalqını öz mərhəmətində saxlamaq və himayəyə götürmək qərarını vermişdi. 1726-cı il fevralın 22-də imperatriçə I Yekaterina ermənilərin yüksək iltifata, mərhəmətə və himayəyə layiq görülmələri haqqında fərman verir. 18-ci əsrin ikinci yarısında ermənilər yenidən fəallaşırlar. 1760-cı ildə Hindistan ermənisi İosif Emin rus hökuməti və gürcü çarı ilə danışıqlar aparır. İran və Türkiyəyə qarşı müharibədə ermənilərin köməyini təklif edir.

1769-cu ildə Həştərxan ermənisi Movses Safarov saraya layihə təqdim edir. O, layihədə rus ordusunun köməyi ilə "Ermənistanı azad etməyi" və Rusiyanın himayəsində dövlət qurmağı təklif etmişdi. Müharibədən sonra, 1780-ci ildə Rusiyadakı erməni yeparxiyasının başçısı İosif Arqutinski (Hovsep Arqutyan) və Moskva varlısı İvan Lazarev (Hovhannes Lazaryan) Rusiya hökumətinin nümayəndələri ilə danışıqlar aparırlar ki, Osmanlı Türkiyəsi və İran sərhədlərinin kəsişdiyi ərazilərdə erməni dövləti yaratsınlar.

(ardı var)

***Hazırladı:***
***T.AYDINOĞLU***
***XQ***

YADDAŞLARDA YAŞAYANLAR

# Ana, mənə nağıl danış...

## 37 yaşında nağıl istəyən həmkarımız 48 yaşında nağıla çevrildi

**Biri vardı, biri yoxdu, bir Qənirə Paşayeva vardı.Mən onu jurnalist kimi tanıyanda, deyəsən, hələ otuz yaşı yox idi. Amma özündən yaşlı həmkarlarından həmişə, xeyli irəlidə olurdu. Daim hansısa ilkə, rekorda, yeniliyə imza atmağı bacarırdı. Əslində, bizim sahədə – jurnalistikada yenilik etmək, ilk addım atmaq o qədər də asan məsələ deyildi. Amma, o, bacarırdı.**

Elə bu sətirlərin qələmə alınması zamanı da, o, özünəməxsus bir ilk yaratmış oldu. Belə ki, artıq bir ilə yaxın davam edən "Yaddaşlarda yaşayanlar" rubrikasına hər həftə bir mərhum soydaşımız haqqında yazı təqdim edirəm. O yazıların hamısı 25-30, bəzən də 35-40 il əvvəl şahidi olduğum faktlar və ya iştirak etdiyim hadisələr, tədbirlər, görüşlər barədə olub. Yəni rubrikamız keçmişləri yada salır. Qənirə haqqındakı bu yazını isə elə mərhumun dəfni günü qələmə almalı oldum.



Daha çox rəsmi tədbirlərdə görüşürdük. Həm müstəqil mətbuat vasitəsində çalışdığına görə nisbətən sərbəst idi, həm də özünün spesifik xarakterinə görə ərköyünlüyü də bacarırdı, rəhbərliyin qarşıya qoyduğu vəzifələri yüksək səviyyədə yerinə yetirməyi də. Üstəlik, bütün həmkarlarının rəğbət və ehtiramını qazanmışdı. Bunu heç də hamı bacarmır.

Dövlət başçısının xarici səfərə getməsi və ya səfərdən qayıtması zamanı hava limanında, az qala, hamımızın əvəzinə suallar verirdi. Heç bir sualı da yersiz olmur və ona görə də cavablandırılırdı. Mən onun suallarına verilən cavablardan nə qədər istifadə eləmişdimsə, bir Allah bilir. Bəzi həmkarları zarafatla ona "ANS-in aeroport müxbiri" deyirdilər. İncimirdi. Bəziləri isə sıramızda iki Qənirə olduğuna görə onu "Böyük Qənirə" deyə çağırırdılar. Son beş-altı gündə, xüsusən, vəfatından sonra mətbuat camiyyəmizin nümayiş etdirdiyi reaksiya sübut etdi ki, o, həqiqətən, Böyük Qənirə idi.

Amma təkcə mətbuat təmsilçilərimi? Əsla yox! Həmin bəd xəbər gələn gün, daha doğrusu, gecəyarısı – az qala, saat 12 idi. Qocaman bəstəkar Tofiq Bakıxanov mobil nömrəmə zəng etdi: "İttifaq bəy, o acı xəbəri eşitdin?" Sonra onun 90 illik yubileyi günlərində Qənirə xanımın nümayiş etdirdiyi qədirbilənlikdən, alicənablıqdan ağız dolusu danışdı. Tofiq müəllim telefonu qapadan kimi, Qəbələdən Ədalət Əliyev adlı ziyalı soydaşımız zəng etdi: "Müəllim, sosial şəbəkədə yazılanlar doğrudur?" Çox təəssüf ki, "doğrudur" – deməli oldum.

O, Ulu öndərin adını daşıyan fondda çalışarkən xalqa, bu quruma ehtiyacı olanlara, sözün həqiqi mənasında, Ümummilli liderimizin adına layiq xidmət elədi. Elə ona görə də vəfatından sonra bir həmkarımız yazdı ki, Qənirə Paşayeva həyatda ana ola bilməsə də, onun ölümü əl tutduğu çox adamı yetim qoydu. Mən bilən bundan yüksək qiymətləndirmə ola bilməzdi. Kimsə ata-anasından yetim qalır, kimlərsə Qənirə Paşayevadan yetim qaldılar.

Deputat seçiləndən sonra da bir çox həmkarlarından irəlidə olmağı bacardı. Bir gündə həm parlamentin iclasında, həm də iki-üç tədbirdə iştirak edirdi. Üstəlik, ölkənin ictimaii-siyasi həyatında elə bir hadisə olmurdu ki, Qənirə Paşayeva ona mətbuatda münasibət bildirməsin. Onun, həmin qəbildən olan bəlkə də yüzdən çox yazısını mən oxuyub redaksiya rəhbərliyinə təqdim eləmişdim. Hər həftə bir neçə yaradıcı ziyalının və ya qələm sahibinin Milli Məclisə dəvət edilməsi də məhz onun Mədəniyyət Komitəsinin sədri seçilməsindən sonra yaranmış ənənə idi. Mən özüm də şahidəm ki, 60, 70, 80 yaşı tamam olan bütün ziyalıların və jurnalistlərin hamısını dəvət edir və bizimlə görüşə özündən başqa iki deputat da çağırırdı.

Vəfat etdiyi gün Facebookda paylaşdığım bir neçə cümlə də məhz 70 yaşım münasibətilə məni və daha bir neçə yubilyar soydaşımızı dəvət edib görüşərkən dediyi fikirlərdən ibarət idi: "İttifaq müəllim, hamı kosmonavt ola bilməz, Milli Qəhrəman ola bilməz. Hamının Xalq yazıçısı, görkəmli bəstəkar, rəssam olmasına da ehtiyac yoxdur.

Ehtiyacımız odur ki, hamı yaxşı vətəndaş olsun, məsuliyyətli insan olsun, yaxın dost, mehriban həmkar olsun. Bu baxımdan sizin bəxtiniz gətirib". Həmin gün o, bizi qəbul edərək sabaha daha inamla baxmağımız üçün bir neçə söz dediyinə görə məmnun idi, mən isə özüm haqqında deyilən"bəxti gətirmiş adam" ifadəsinə görə.

...Dövlət radiosunda çalışdığım illərdə iş yoldaşımız olmuş Sevil Əliyeva Facebookda Qənirənin bir şeirini məhz müəllifin səsində paylaşmışdı. Çox təsirli idi. Anası ilə söhbət kimi qələmə alınmış bu mənsur şeiri cəmi 37 yaşı olan bir xanımın yazdığına inanmaq olmur. O, 37 ildə nə qədər mürəkkəb həyat görübmüş? Bu sətirləri də elə o şeirin bir neçə bəndi ilə tamamlamaq istəyirəm:

*Bu gecə yata*
*bilmədim, ana,*
*36 yaşın qorxusu*
*vardı içimdə.*
*Məni 37-yə aparan*
*gecənin*
*səhərində soyuq var.*
*Üşüdüm, ana!*

*Bütün gecə səsin gəldi*
*qulaqlarıma –*
*Keçmişdən gəlirdi səsin:*
*"Böyü, qızım, yeri, qızım,*
*Dil aç, qızım!" –*
*deyirdin...*
*Böyüdüm, ana.*

*Yıxılıb-qalxdığım oldu...*
*Qalxdım qalxmağına,*
*amma canım çox ağrıdı,*
*qəlbim çox ağrıdı, Ana...*
*Sən mənə bu dünyada*
*qadın olmağın,*
*Belə çətin olduğunu,*
*deməmişdin axı...*
*Ayaqların üstündə*
*durmaq,*
*namusunla yaşamaq,*
*Haqq bildiyini söyləmək*
*istəsən,*
*Qadın olmanın bədəli çox*
*ağırmış, ana!*
*Sən mənə belə*
*deməmişdin axı...*

*Heç kimə göstərmədim*
*göz yaşlarımı,*
*İçimə axıtmağı öyrəndim,*
*ana.*
*Bu gecə səsin gəlirdi*
*qulaqlarıma –*
*Mənə nağıl danışırdın,*
*Xeyirin həmişə Şərə qalib*
*gələcəyini deyirdin.*

*Mən düz 36 il Xeyirin*
*qələbəsini gözlədim,*
*Şər qalib gələndə*
*ağladım, ana!*
*Sənin nağılların belə*
*qurtarmırdı axı...*
*Mən səndə gördüm insanı*
*anlamağın necə*
*səssiz olduğunu...*

*... Məni uşaqlığıma apar,*
*ana.*
*Sonu xoşbəxtliklə*
*qurtaran*
*nağıllar danış.*
*"Biri var"ları çox olsun,*
*37 yaşımın ilk sabahını*
*Sənin nağıllarına*
*inanaraq açmaq*
*istəyirəm.*

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Mədəniyyət xəbərləri



**Avstriyanın Baden şəhərində Azərbaycanın Əməkdar artisti, pianoçu və bəstəkar İsfar Sarabski və tarzən Bəhruz Zeynalın konsert proqramı maraqla qarşılanıb.**

Caz konsertində Azərbaycan və Avropa bəstəkarlarının əsərləri, həmçinin Azərbaycan xalq mahnıları caz improvizasiyaları ilə təqdim olunub. Eləcə də İsfar Sarabskinin bəstələdiyi "Novruz", "Qarabağ atları", "Area DNA", "The Edge" və "Naməlum" əsərləri, Bəhruz Zeynalın isə müəllifi olduğu "Batin" kompozisiyaları tamaşaçıların alqışlarını qazanıb. İ.Sarabskinin bəstələdiyi əsəri isə ilk dəfə ictimaiyyət üçün səsləndirilib.

Qeyd edək ki, İsfar Sarabski və onun rəhbərlik etdiyi musiqi qrupu sentyabrın 15-dən oktyabrın əvvəlinədək Azərbaycan musiqi mədəniyyətinin tanıdılması məqsədilə Avropanın bir sıra ölkələrində qastrol səfərindədir. Səfər çərçivəsində məşhur "Warner Music Group" şirkətinin əməkdaşlığı ilə yazılan "Planet" albomunun da təqdimatı keçirilir.

***

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kollektivi Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən "ART – ORDO 2023" IX Teatr Festivalında Ülviyyə Heydərovanın eyniadlı pyesi əsasında Elşad Rəhimzadənin quruluş verdiyi "İnanıram" adlı monotamaşa ilə çıxış edib.**

Xalq artisti Baken Kıdekeyavanın 100 illiyinə həsr olunmuş festivalda tamaşanın yaradıcı heyəti festivalın xüsusi mükafatına, teatrın aktrisası Zemfira Əbdülsəmədova isə ana roluna görə "Ən yaxşı qadın" nominasiyası üzrə mükafata layiq görülüb.

Səhnə əsəri Vətən sevgisini bütün sevgilərdən daha üstün tutan şəhidlərimizə və onların analarına həsr olunub.



***Hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

YENİ NƏŞRLƏR

# "Göyçay ensiklopediyası"



**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) növbəti nəşri, nəfis tərtibatlı "Göyçay Ensiklopediyası" işıq üzü görüb. Dünən Göyçayda yeni toplunun təqdimat mərasimi keçirilib.**



Ulu öndər Heydər Əliyevin 100 illiyinə ithaf olunan kitabın ideya müəllifi və naşiri AVCİYA prezidenti Elxan Süleymanovdur. Onun ensiklopediyaya yazdığı ön sözdə bildirilib ki, bu kitab daha əvvəllər oxuculara təqdim olunmuş "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi – Göyçay döyüşləri", "Göyçay döyüşləri Türkiyə tarixşünaslığında və "Göyçay tarixi" kitablarının daha möhtəşəm şəkildə davamı kimi hazırlanıb.

Müəllif yazır ki, Ulu öndər və onun layiqli davamçısı, Prezident İlham Əliyev ölkəmizin bütün bölgələrinə olduğu kimi, Göyçaya da xüsusi qayğı və diqqətlə yanaşıblar. Göyçaylıların dərin minnətdarlıqla xatırladıqları mühüm faktlardan biri misal gətirilir: "1976-cı ildə Göyçay ərazisini daimi sel sularından qorumaq üçün Heydər Əliyevin göstərişi ilə Ərvan çayı üzərində bənd tikildi. Bunun sayəsində rayonumuzun geniş torpaq sahələri abadlaşdırıldı, yüzlərlə ev, məktəb, mədəniyyət ocaqları tikildi, bağlar, parklar salındı.İnsanlar evlərində rahat yaşamaq imkanı qazandılar".

Ensiklopediyada bölgənin tarixi, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı, inzibati-ərazi vahidləri, fiziki-coğrafi obyektləri, geoloji quruluşu, yeraltı və yerüstü təbii sərvətləri haqqında məqalələr, müvafiq xəritələr yer alıb. Yerli ədəbi-mədəni mühit, folklor və mərasimlər, maddi mədəniyyət, toponimlər haqqında tanınmış tədqiqatçıların yazdıqları oçerklərlə tanış olmaq olar. Kitaba, ilk növbədə, və daha çox Göyçayın adını xan çinarın ucalığına qaldırmış görkəmli şəxsiyyətlər haqqında məqalələr daxil edilib. Bunların hamısı 951 məqalədə, 11 irihəcmli oçerkdə birləşib.

Qeyd edək ki, ensiklopediyanın elmi-redaksiya şurasının rəhbəri Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev, nəşrin baş redaktoru filologiya elmləri doktoru, professor Asif Hacılıdır. Cildin tərtibatında Səttar Bəhlulzadənin "Göyçay" (1972) rəsmindən istifadə edilib ki, bu da Azərbaycanda narın Vətəni sayılan bir rayonun simvolu kimi təqdirəlayiqdir.




Ensiklopediyanın təqdimat mərasimində çıxış edən Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev nəfis tərtibatda ərsəyə gətirilmiş geniş məlumat toplusunun buraxılmasını təqdirəlayiq hal kimi dəyərləndirdi və yaradıcı heyətə razılığını bildirdi. Sonra AVCİYA prezidenti Elxan Süleymanov qeyd etdi ki, bu, 2015-ci ildə buraxılmış "Şamaxı ensiklopediyası"ndan sonra eyni silsilədən hazırlanan 2-ci nəşrdir. O, ensiklopediyanın çapına informasiya dəstəyi göstərənlərin hamısına dərin təşəkkürünü bildirdi.

Nəşrin baş redaktoru ensiklopediya üzərində aparılan işdən danışdı və sözü Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara verdi. Anar müəllim ensiklopediyanın elmi-redaksiya şurasının sədri olmasından qürur duyduğunu söylədi və bu kitabın hər bir göyçaylının sevə-sevə oxuyacağına əminliyini ifadə etdi.

Təqdimatda Milli Məclisin deputatı Zahid Oruc, "Yeni müsavat" qəzetinin məsul redaktoru Elşad Məmmədli, "Göyçay" rayon qəzetinin redaktoru Adil Məmmədov və başqaları çıxış edərək, Ulu öndərin 100 illiyinə layiqli töhfə olan nəşrin hazırlanması üçün çəkilən zəhməti yüksək dəyərləndirdilər, ensiklopediyanın uzun illərdən sonra da etibarlı mənbə kimi qalacağına inandıqlarını bildirdilər.

***İlqar HƏSƏNOV***
***XQ-nin***
***bölgə müxbiri***

BEYNƏLXALQ HƏYAT

# Türkiyə bölgədə sülh və təhlükəsizliyin qarantıdır



(əvvəli 1-ci səhifədə)

Türkiyə böyük dövlətçilik ənənələrinə malik dövlətdir. Regionda və dünyada baş verən proseslər, onların mümkün təsirləri diqqətlə araşdırılır və xarici siyasətin prioritetləri müəyyən edilir.

İki gün əvvəl Ankarada Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Türkiyənin Milli Təhlükəsizlik Şurasının (MTŞ) fövqəladə iclası keçirilib. Diqqətə çatdırılıb ki, bölgədə sülh və təhlükəsizliyin təmin olunması Ankara üçün həyati əhəmiyyət kəsb edir.

MTŞ-nin iclasla bağlı ictimaiyyət üçün açıqladığı sənəddə deyilir ki, Türkiyənin xarici siyasətində Kərkükdə sülhün qorunması, İraqdakı terrorçu qrupların məhv edilməsi, Ermənistan–Azərbaycan münaqişəsinin ədalətli həlli və s. məsələlər prioritet təşkil edir.

Bəyanatda, həmçinin bildirilir ki, Ankara həm regionda, həm də NATO missiyasının komandanlığını tezliklə öz üzərinə götürəcəyi Kosovoda sülh və sabitliyin qorunması üçün maksimum səy göstərir və bundan sonra da göstərəcək. Eyni zamanda, Ankara Azərbaycan iqtidarının Cənubi Qafqazda davamlı sülhə və sabitliyə nail olmaq üçün həyata keçiridiyi siyasəti birmənalı olaraq dəstəkləməkdə davam edəcək.

Bütün tərəflərə, xüsusən də Ermənistana xatırladılıb ki, Cənubi Qafqazda davamlı sülhə gedən yol yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin qeyd-şərtsiz bərqərar olunması ilə açıla bilər.

Məlum olduğu kimi, son günlər ərzində Ermənistan silahlı qüvvələrinin Qarabağda törətdiyi təxribatlardan sonra Azərbaycan antiterror addımları atmağa vadar olub və 24 saat ərzində qarşısına qoyduğu hədəflərə nail olub.

Bakının qətiyyətli və prinsipial mövqeyi bütün Turan ellərində böyük məmnunluq hissilə qarşılanıb. Böyük bir coğrafi ərazidə türk dövlətləri və xalqlarının bütün sahələrdə sıx əməkdalığı üçün yeni üfüqlər açılır. Zəngəzur dəhlizinin açılması ilə bu əməkdaşlıq daha yüksək səviyyəyə çatdırılacaq.

Şimali Kipr probleminin ədalətli həlli bütün türk xalqlarını çox düşündürür. BMT sülhməramlıları Kiprin türk icmasına qarşı ara-sıra qanunazidd, ikiüzlü hərəkətlərə yol verirlər. MTŞ onların tərəfsizlik prinsipinə əməl etmədiklərini bildirib: "Bu çərçivədə Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) səlahiyyətliləri ilə yazılı razılaşma yolu ilə sülhməramlı qüvvələrin fəaliyyəti üçün hüquqi baza yaradılmalıdır".

Bu ayın əvvəlində Kiprdəki BMT-nin sülhməramlı qüvvələri Lefkoşada "yaşıl xətlə" həmsərhəd ŞKTC-yə aid ərazidə Təhlükəsizlik Qüvvələri Komandanlığının (TQK) əsgərlərinə hücum etməyə cəhd göstərib. BMT-nin yerdəki nümayəndələri ərazidə humanitar yol tikintisinə də qərəzli yanaşıblar, Kiprin yunan administrasiyasına isə əksinə güzəştlər ediblər.

Türkiyə BMT rəhbərliyini qətiyyətlə "qərəzsizliyə" çağırıb. Xatırladaq ki, Ankara adadakı yunan administrasiyasını dövlət olaraq tanımır. Lakin Avropa İttifaqı yunan Kiprinə hər cür siyasi dəstək verməkdə davam edir.

Türkiyə Liviyada da sabitliyin qorunması üçün bu ölkənin daxilindəki siyasi qüvvələrlə balanslı və ədalətli şəkildə işləyir. Sentyabrın 10-da Liviyanın Aralıq dənizinin şərq sahillərini vuran "Daniel" qasırğası Benqazi, Əl-Bayda və Əl-Mərc şəhərləri ilə yanaşı, Susa və Dernada da daşqınlara səbəb olub. Ümumdünya Səhiyyə Təşkilatı 4000-ə yaxın insanın öldüyünü, çoxunun isə itkin düşdüyünü bildirib.

Fəxrlə bildirmək olar ki, Türkiyə dövləti qasırğanın fəsadlarını aradan qaldırmaq və əhaliyə hərtərəfli yardım göstərmək üçün Liviyaya ilk humanitar yardım göndərən dövlətlərdən biridir. Bəli, türklər heç vaxt dostlarını darda qoymurlar. Türk ruhu bunu özünə rəva görməz. Bu, həm də mənəviyyat məsələdidir.

***C.CƏFƏRLİ, M.HACIXANLI XQ***

## EKSPERT RƏYİ



**Şahbaz ŞAMIOĞLU, Bakı Slavyan Universitetinin professoru, siyasi şərhçi**

--Qeyd etmək lazımdır ki, bir neçə ay əvvəl Türkiyədə keçirilən son prezident seçkilərindən sonra qardaş ölkənin xarici siyasətində aktivləşmə müşahidə olunur. Bu da səbəbsiz deyil. Planetimizdə yeni dünya düzəni formalaşır. Gecikmək olmaz.

Çağdaş dünyanın ən güclü və qüdrətli dövlətlərindən olan Türkiyənin beynəlxalq arenada özünə layiqli yer tutması son dərəcə vacibdir. Təəssüf ki, müasir dünyada qanunun gücü yoxdur, gücün qanunu var. Belə çətin şəraitdə belə Türkiyə dövləti prinsipial və ədalətli mövqe sərgiləyir.

Türkiyə iqtidarı indi təkcə Afrika və Yaxın Şərqdə deyil, eyni zamanda Cənubi Qafqazda, eləcə də Orta Asiyada fəaldır. Türkiyə böyük bir ərazidə "yumşaq güc"ə sahibdir. Türkiyə hazırda qlobal siyasətə təsir göstərən bilən əsas aktorlardan birinə çevrilib.

Prezident Rəcəb Tayyib Ərdoğan müasir dünyanın ən müdrik və xarizmatik liderlərindən biridir. Türkiyə lideri hər zaman haqqın-ədalətin yanındadır. Dünyaya sülh mesajları verir. Dünya bunun fərqindədir və yüksək dəyərləndirir.

Türkiyə dövləti bu gün region və bütün dünya ilə sıx əməkdaşlığa hazırdır. Bu çox vacib məqamdır. Çünki xalqlar və dövlətlər əsasında qarşılıqlı inam və etimad bu gün bəşəriyyətin təhlükəsizliyi üçün hava-su kimi lazımdır. Türkiyə sülh və ədalət yolunu tutub. Necə deyərlər, Allaha əmanət, Türkiyə! Səninlə qürur duyuruq!

KÖŞƏ

**Son illər rayon qəzetlərinin rastlaşdığı problemlər o qədər üzücüdür ki, artıq onun həll yolunu axtarmağın mümkünlüyünə, demək olar ki, ümidimizi itirmişik. Həmkarım, "Kür" qəzetinin redaktoru Əminə Yusifqızının bu günlərdə ürək ağrısı ilə yazdığı "Bölgə mətbuatı: tamam, yoxsa davam?" sərlövhəli yazısı məni əlimə qələm götürməyə və onun səsinə səs verməyə vadar etdi.**

# Rayon qəzetləri son nəfəsdə...

Öncə onu dönə-dönə vurğulamaq istəyirəm ki, bizim problemlərimiz heç də şəxsi məsələ deyil. Biz artıq öz missiyamızı yerinə yetirmişik, – deyə bilərik. Qırx ildən artıqdır ki, rayon qəzetlərində çalışırıq, heç bir maddiyyatı güdmədən, çətinlikləri faciəyə çevirmədən. Demirəm ki, qeyri-adi nə isə etmişik, – yox. Lakin, bu, bir həqiqətdir ki, hərəmiz bir bölgənin döyünən ürəyi, vuran nəbzi ola bilmişik. Əgər bir rayon qəzeti həftədə üç dəfə 15-20 min tirajla çap olunurdusa, təbii ki, onun səhifələrindəki yazıların hər biri o günlərə güzgü tuta bilib, tarixi yaşada bilib. Bu bir salnamədir, elə bir salnamə ki, oxucuya bədii-publisistik dildə, peşəkar qələmlə yazılmış, hər sətrində torpağa, yurda sədaqət və məhəbbət aşılanan, inkişafın dinamikasını özündə əks etdirən mükəmməl bir salnamə.

"Keçmişə daş atsan gələcək səni topa tutar" – deyib müdriklər. Bu gün rayon qəzetlərini heçə sayan, onu dayanmadan daşqalaq edənlərə, təəssüf ki, "dur!" deyən tapılmır. Nə yazıq ki, bunu edənlər, rayon qəzetlərini tarixin arxivinə göndərmək istəyənlər, deyəsən, öz istəklərinə tam olaraq nail olmaq üzrədirlər. Bu reallıqları ona görə yazırıq ki, gələcək nəsil deməsin ki, siz mübariz olmadınız, qəzetləri yaşatmaq üçün heç bir cəhd göstərmədiniz. Necə ola bilər ki, 100 yaşını təntənə ilə qeyd etməyi haqq edən bir qəzet belə bir cəhdi göstərməsin? "Zaqatala" qəzetinin bu il 100 yaşı tamam olur. Nə olsun ki, bu, aidiyyatı qurumları narahat etmir. Rayon qəzetləri, sanki, son nəfəsini verən xəstə kimidir. Maliyyəsi yox, sahib çıxanı yox. Gün var idi ki, rayon rəhbərləri öz iş planlarını qəzetin qaldırdığı problemlər və toxunduğu mövzulara uyğun yazırdılar.

XXI əsrdə yaşayırıq. Həyat o qədər sürətlə irəliləyir ki, yeni texnika və texnologiyasız bu irəliləyişin arxasınca çatmaq mümkün deyil. İnternet insanların həyatına hörümçək toru kimi daxil olub. Elə bil ki, insanlar internet sindromuna tutulublar. Bu yaxşıdır, ya pis, müzakirə mövzusu deyildir. Müzakirə mövzusu kimin bu irəliləyən texnoloji mühitdə əhəmiyyətli yer tuta bilməsindədir. Təəsüf ki, bizim gənclik, ümumiyyətlə, insanımız informasiya-komunikasiya texnologiyasından lazımınca faydalana bilmir. Bunu mən yox, mütəxəsislər deyirlər.

İnternetdə gün keçirmək, vaxtı səmərəsiz və faydasız tik-toklara, videolara sərf etmək ən böyük bəladır. O insan udur ki, bunu dərk edir və internetdən səmərəli istifadə edir. İnternet onun vaxtını yemir, əksinə, o, işini elə qurur ki, internet ona işləyir. İnternet TV-lər, internet qəzetlər, sosial şəbəkələr, bloqlar və blogerlər bu günün reallıqlarıdır. Onları danmaq gerizəkalılıq olar ki, bir ziyalı olaraq, biz bu fikirdən uzağıq. Bu, bir platformadır, insanlara öz fikirlərini azad söyləməyə imkan verən bir platforma. Təəssüf ki, bu platformada "at oynadan"ların peşəkarını barmaqla saymaq olar. Unutmaq olmaz ki, peşəkarlıq bütün sahələrdə insandan tələb olunan birinci qabiliyyətdir.

Mən burada bir haşiyə çıxmaq istəyirəm. Bu yaxınlarda bir təlimdə iştirak etdim. Təlimin mövzusu "Ailə zorakılığı və peşəkar media" idi. Təlimə dəvət olunanların içərisində yeganə mən idim ki, jurnalist təhsilim və bu sahədə uzun müddətli iş təcrübəm var idi. Təlimin gedişatı zamanı gördüm ki, sənətdə təsadüfi şəxs olmaq, jurnalistikaya yiyələnmədən bu sahədə at oynatmaq təkcə o adamların bədbəxtliyi deyil, bütün cəmiyyətin bədbəxtliyidir. Bu adamlar jurnalistikanın adi etik prinsiplərini bilmirlər, yazıda şərəf və ləyaqətin tapdalanmasının bağışlanmazlığını, müəllifin də keçməli olmadığı bir qırmızı xəttin mümkünlüyünü dərk etmirlər.



**Elmira MEHDİYEVA**
**elmira56@list.ru**

Hərəsi bir sahədən gəlib sayt yazarı, TV aparıcısı, nə bilim, nə olublar. Gəldiyim qənaət o oldu ki, peşəkarlıq üçün təkcə iş tapıb işləmək, istək kifayət deyil, peşəkarlıq üçün mükəmməl təhsil də vacibdir. Peşəkar olmadığı üçün internet yazarları ilə mübahisə aparmaq belə olmur. Bu gün çap mediasını lazımsız hesab edənlərin özlərini də eyni aqibətin gözlədiyini unutmasınlar. Bizdən gələcək nəslə heç olmasa qəzet qovluqları qalacaq, sizdən isə nə qalacaq – bilmirəm.




Rayon qəzetlərinin yaşaması üçün ona dəstəyin göstərilməsinin vacibliyini dəfələrlə vurğulamışıq. Rayon qəzetlərinin redaktorları birgə imza ilə müxtəlif ünvanlara məktublar ünvanlayıblar. Bu məktublara bənd-bənd təkliflər də əlavə olunub. Lakin, bu müraciətlərin heç bir səmərəsi olmayıb. Ötən ilin sentyabrında rayon qəzetlərinin icra hakimiyyətlərinin təsisçiliyindən çıxarılması barədə Prezident sərəncam imzaladı. Ölkə başçısının digər sərəncamına əsasən isə bütün qəzetlər dövlət reyestrində qeydiyyata alınmalıdır.

Bu yazımda MİA-ya yeganə bir təklifim var. Heç olmasa, Media İnkişaf Agentliyi sayı artıq barmaqla sayılacaq qədər az qalan, ayda 4 dəfə olan sayını birə endirən, onun da çap xərcini ödəmək iqtidarında olmayan rayon qəzetlərinə də onların layihələrində iştirak etməyə şərait yaratsın. Rayon qəzeti 6-7 əməkdaşa əmək haqqı vermək iqtidarında olsaydı, inanın heç layihə üçün müraciət etməzdi.

Suala cavab tapmadım, əziz həmkarım. Elə əngəllər var ki, yola necə "davam edək" deməkdə çətinlik çəkirəm.

## Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

*"Tikinti normalarının ekspertizası və innovasiyalar" şöbəsinə aşağıdakı vəzifələr üzrə vakansiyalar*

**ELAN EDİR**

**Baş mütəxəssis – 2 nəfər.**
**Mütəxəssis – 1 nəfər.**

***Baş mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə PhD diplomuna malik olmalıdır; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində 10 ildən, həmçinin uyğun təşkilatlarda layihələndirmə üzrə 3 ildən az olmayan təcrübəyə malik olmalıdır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri (sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | "Microsoft" Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə arzuolunandır; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində müstəqil kvalifikasiya qiymətləndirilməsindən sertifikata malik olması arzuolunandır. |

***Mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə respublikada və ya xaricdə magistratura təhsili səviyyəsini bitirməsi; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində təcrübəyə malik olması və ya elmi-tədqiqat, layihə institut və təşkilatlarında təcrübə keçməsi arzuolunandır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri ( sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | "Microsoft" Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində yerli və xarici elmi-praktik konfranslarda və "startap" layihələrində, müxtəlif vebinarlarda iştirak, eləcə də kompüter layihələndirmə proqramlarına dair sertifikatlara malik olması arzuolunandır. |

**Əlavə məlumatı Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutuna müraciət etməklə əldə etmək olar.**
**Əlaqə telefonları – 012 596 37 60 (dax. 248,252) +994 50 681 78 72.**
**E-mail – nazim.cafarov@arxkom.gov.az**
**İnstitutun ünvanı – Bakı şəhəri, Füzuli küçəsi 65.**

***MÜDİRİYYƏT***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 213 (30329) 1 oktyabr 2023-cü il, bazar

## Maraq dünyamız

# Yaponların "məsəl" göydələni

**Tokioda Yaponiyanın ən hündür göydələni olacaq binanın tikintisinə başlanılıb. Bu barədə "Mitsubishi Estate" layihəsinin operatoru məlumat verib.**

Tikintiyə paytaxtın mərkəzindəki Tokio stansiyasının yanında başlanılıb. "Torch Tower" adlanacaq göydələnin hündürlüyünün, təqribən, 390 metr olacağı və tikintisinin 2028-ci ilin mart ayına kimi başa çatdırılacağı gözlənilir.

Beləliklə, yeni bina hazırkı rekordçunu - Tokioda yerləşən 330 metr hündürlüyü olan "Azabudai Hills" binasını keçərək ölkənin ən hündür binası olacaq.

Forma və dizayn baxımından yeni göydələn məşələ bənzəyəcək. Onun yuxarı mərtəbələrinin yanan məşəl alovu effekti yaradaraq daha parlaq işıqlandırılacağı gözlənilir.

*XQ*



## İdman xəbərləri

# Xocəsəndə "Sağlam məhəllə"

**Xocəsən qəsəbəsində "Sağlam məhəllə"nin idman zonası istifadəyə verilib.**



Mərasimdə gənclər və idman naziri Fərid Qayıbov, Binəqədi Rayon İcra Hakimiyyətinin rəsmiləri və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

"Sağlam məhəllə"də minifutbol, basketbol və voleybol meydançaları, eləcə də hər yaş qrupuna uyğun fitnes avadanlıqları yerləşdirilib. Nazir burada yaradılmış şəraitlə yaxından tanış olub və qəsəbə sakinləri ilə görüşüb.

Qeyd edək ki, "Sağlam məhəllə" layihəsini Gənclər və İdman Nazirliyi "Qala Sığorta"nın dəstəyi ilə əhalinin sağlam həyat tərzinin təmin edilməsi məqsədilə həyata keçirir.

# Premyer Liqa: "Neftçi" "Turan Tovuz"a qalib gəlib

**Futbol üzrə Azərbaycan Premyer Liqasında VIII turun növbəti oyunları keçirilib.**



Dünən Tovuz şəhər stadionunda keçirilən "Neftçi" "Turan Tovuz" qarşılaşması qonaqların minimal hesablı qələbəsi ilə başa çatıb. Bu nəticədən sonra xallarını 12-yə çatdıran "ağ-qaralar" dördüncü pilləyə yüksəlib. 11 xalı olan bölgə təmsilçisi isə beşinci sıraya geriləyib.

"Sabah" komandası isə "ASCO Arena"da "Səbail"lə üz-üzə gəlib. Qarşılaşmada qalib müəyyənləşməyib - 2:2.

Bu nəticədən sonra xallarını 14-ə çatdıran "Səbail" üçüncü pillədəki mövqeyini qoruyub. Altı xalı olan "Sabah" isə səkkizinci sırada qalıb.

# Çimərlik voleybolçularımız dörddəbir finalda



**Çimərlik voleybolu üzrə Azərbaycanın kişilərdən ibarət komandaları "Bioderma Pro Beach Tour" açıq çempionatında 1/4 finala yüksəliblər.**

Federasiyadan bildiriblər ki, yarışda ölkəmizi təmsil edən Vüqar Bayramov/Ülvi Rəcəbli və Vadim Kutukov/Heydər Məmmədli cütləri bu mərhələdə bir-birlərinə rəqib olacaqlar.

Qeyd edək ki, sentyabrın 29-da Türkiyənin Mersin şəhərində start götürən yarışın qalibləri oktyabrın 1-də müəyyənləşəcək.

*Leyla SABİRQIZI*
*XQ*

# 6 min illik ayaqqabı

**İspaniyada XIX əsrdə mədənçilər tərəfindən talan edilmiş yarasa mağarasında bir sıra qədim obyektlər aşkar edilib. Onların arasında ayaqqabı tapılıb ki, alimlər onun Avropanın ən qədim ayaqqabısı olduğunu iddia edirlər.**



Quru otlardan toxunan sandalların, təxminən, 6 min il yaşı var. Mağaranın aşağı rütubəti və sərin küləkləri onları qeyri-adi dərəcədə yaxşı qoruyub saxlayıb. Analiz edilən sandalların tikintisində müxtəlif növ otlardan, eyni zamanda dəri və əhəng materiallarından istifadə edilib.

"Obyektlər Cənubi Avropadan indiyə qədər məlum olan ən qədim və ən yaxşı qorunan bitki lifi materiallarıdır. Xammalın müxtəlifliyi və emalı tarixdən əvvəlki icmaların bacarıqlarını ortaya qoyur", - deyə tədqiqatın həmmüəllifi Maria Herrero bildirib.

*AYTƏN*
*XQ*



# Plastiki yeyən qurd

**İspan alimləri plastiki parçalaya bilən qurdlar aşkar ediblər. Tədqiqatın nəticələri "Science Advances" jurnalında dərc olunub.**

Elm adamları araşdırmalar zamanı mum güvəsi kimi tanınan "Galleria mellonella" qurdunun sürfələrini tədqiq ediblər. Alimlər krioelektron mikroskoplardan istifadə edərək nümunə kimi qurdların tüpürcəyindən istifadə ediblər.

Sonra, 3D rekonstruksiyaların sayəsində aparılan tədqiqatlar göstərib ki, tüpürcəyin tərkibinə polietileni oksidləşdirə və parçalaya bilən dörd heksamerin qrupu (Demetra, Cibeles, Ceres, Cora) daxildir. Bu heksamerlərdən ikisinin polietileni oksidləşdirə və parçalaya bildiyi aşkar edilib.

*S. FİDAN*
*XQ*

# Bakı Bulvarı 25 kilometrədək uzadılacaq



**"İqlim dəyişmələri proseslərinə adaptasiyanın əsas komponentlərindən biri yaşıllıq sahələri ilə bağlıdır. Şəhərdə yaşıllıqların və açıq sahələrin artırılması Bakı şəhərinin Baş Planının layihəsinin prioritet məqsədlərindən biridir".**

Bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Bakıda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda deyib. Nazir Bakı şəhərində yaşıllıqların xeyli artırılacağını deyib:

"Həmçinin, Bakı Bulvarının uzadılması planlaşdırılır, onun uzunluğu 2040-cı ilə qədər yüksək keyfiyyətli ictimai yaşıllaşdırma ilə 25 kilometrdən çox olacaq".

*XQ*

# "İnstagram"da şəkil redaktəsi

***"İnstagram" iki yeni funksiya ilə süni intellekti inteqrasiya etməyə hazırlaşır. "Restyle" və "Backdrop" adlanan bu proqramlar şəkilləri redaktə etmək, eləcə də stikerlər yaratmaq üçün istifadə olunacaq.***




Bununla da, tezliklə istifadəçilər süni intellekt vasitəsi ilə öz fotolarını redaktə edə biləcəklər. Fotoşəkillər dəyişdiriləcək və fon yönümlü proqramlaşdırma edilə biləcək.

*XQ*

## Sağlamlıq

# Sizin kalsiumunuz varmı?

**Hazırda uşaqlar və gənclər arasında ciddi kalsium defisiti var. Bu isə təkcə sümüklərə deyil, digər orqanlara da təsir edir. Dietoloq Mixail Qinzburq kalsium azlığı zamanı əzələlərin zəifliyini, saç, dırnaqların qırıldığını, çanaq və onurğada ağrılar olduğunu bildirib.**



Deyib ki, bu adamlar, həm də əsəbi və nevroz olur. O, kalsium defisitini aradan qaldırmaq üçün kalsium mənbəli qidaları qəbul etməyi tövsiyə edib. İnsan heç vaxt sutkalıq kalsium ehtiyacını təmin edən qidaları tam qəbul etmir. Bunun üçün tərkibində maksimum kalsium çox olan qidaları seçmək lazımdır.

Bu qidalarda D və K2 vitamini də olmalıdır ki, kalsium mənimsənilsin. K 2 vitamini hər şeydən çox paxlalılarda, lobya, noxudda var. Gündə 1 dəfə yemək lazımdır. D vitamini isə balıqda, yumurta sarısındadır. Gündə 2 ədəd yumurta məsləhətdir. Xüsusən məktəbli və tələbələr bu qidaları müntəzəm qəbul etməlidirlər.

*H.ZƏRİFƏ*
*XQ*

## Kosmos



# Ozon dəlikləri bağlanacaqmı?

**Dünyada qlobal ekoloji şərait ildən-ilə pisləşir. Bu sahədə bəşər övladının ozon dəlikləri problemini həll etməyindən savayı, qürrələnməyə heç nəyi yoxdur. Belə bir qənaətə Rusiya Elmlər Akademiyası Su Problemləri İnstitutunun alimləri gəliblər.**

Onların fikrincə, insanın təbiətlə münasibətində əldə etdiyi yeganə müsbət istisna planetin ozon qatı ilə bağlıdır. Monreal protokolu qəbul olunandan və bu sənəddə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsindən sonra ozon qatının xarakteristikası yaxşılaşmağa başlayıb.

*SEVDA*
*XQ*

## Cəmiyyət

# 100 uşağın isti ocağı

**Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti kollegiya iclasında bildirilib.**



Sosial xidmətlər sahəsində görülən işlər, o cümlədən bu il 5149 nəfərə evdə sosial-məişət xidməti göstərildiyi, 100 uşağın övladlığa verildiyi, reinteqrasiya tədbirləri nəticəsində dövlət uşaq müəssisələrindən 126 uşağın öz ailəsinə qaytarıldığı qeyd olunub.

Cari ildə 2247 imtiyazlı şəxsin, o cümlədən 300-dən çox şəhid ailəsi üzvünün sanatoriya-kurort yollayışı ilə təmin edildiyi diqqətə çatdırılıb.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4842
SİFARİŞ 2499
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00